## QANUNVERİCİLİK

**1. Azərbaycan Respublikasının Konstitusiyasına əsasən dövlətin ali məqsədlərinə aiddir:**

1. dövlətin tərəfdar çıxdığı beynəlxalq müqavilələrə riayət olunmasının təmin edilməsi
2. insan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi
3. ölkə vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsi
4. iqtisadi inkişafa və tərəqqiyə nail olmaq

A) 2, 3
B) 1, 2
C) 1, 4
D) 3, 4

**2. "Dövlət qulluqçularının etik davranış qaydaları haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən dövlət qulluqçusu birbaşa və ya yuxarı rəhbəri tərəfindən ona verilən əmrin, sərəncamın və ya tapşırığın qanuna və ya digər normativ hüquqi akta zidd olmasına əmindirsə:**

A) istənilən halda ona rəhbərlik tərəfindən verilən əmri, sərəncamı və ya tapşırığı yerinə yetirməlidir
B) yuxarı rəhbərindən həmin göstərişin və ya əmrin yazılı şəkildə ona verilməsini tələb etməlidir
C) bu barədə yazılı əsaslandırmanı birbaşa və ya yuxarı rəhbərinə təqdim etməlidir
D) həmin əmr, sərəncam və ya tapşırığın yerinə yetirilməsindən imtina etməlidir

**3. "Dövlət qulluqçularının etik davranış qaydaları haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən etik davranış qaydalarına əməl olunmasına nəzarət edən dövlət orqanının rəhbərinin vəzifələrinə aid *deyil:***

A) tabeliyində olan dövlət qulluqçuları arasında onların tutduqları vəzifələrə uyğun olaraq vəzifə bölgüsü aparmaq
B) etik davranış qaydalarının pozulmasının qarşısının alınması və profilaktikası üzrə tədbirlər görmək
C) öz səlahiyyətləri çərçivəsində bu qanunla müəyyən olunmuş etik davranış qaydalarını və onlara əməl olunması ilə bağlı təminatları konkretləşdirən normativ hüquqi aktları işləyib hazırlamalı və təsdiq etmək
D) dövlət qulluqçularının etik davranış məsələləri üzrə ictimai rəyin öyrənilməsi və bununla bağlı maarifləndirmənin həyata keçirilməsi üçün tədbirlər görmək

**4. "Azərbaycan Respublikasının Dövlət bayrağı haqqında" Əsasnaməyə əsasən Azərbaycan Respublikasının bayrağında səkkizgüşəli ulduzun xarici dairəsinin diametri bərabərdir:**

A) bayrağın eninin 1/12-nə
B) bayrağın eninin 1/2-nə
C) bayrağın eninin 1/4-nə
D) bayrağın eninin 1/6-nə

**5. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən dövlət qulluğuna xitam verilir:**

A) dövlət qulluqçusunun xidməti fəaliyyəti qeyri-kafi qiymətləndirildikdə
B) dövlət orqanında struktur dəyişikliyi baş verdikdə
C) dövlət qulluqçusu məhkəmə tərəfindən xəbərsiz itkin düşmüş hesab edildikdə
D) dövlət qulluqçusu pensiya yaşına çatdıqda

**6. Azərbaycan Respublikasının Konstitusiyasına əsasən Azərbaycan Respublikası Milli Məclisinin növbədənkənar sessiyalarını çağırır:**

A) Azərbaycan Respublikası Milli Məclisinin sədri
B) Azərbaycan Respublikasının Prezidenti
C) Azərbaycan Respublikası Milli Məclisinin 42 deputatı
D) yalnız Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi

**7. "Azərbaycan Respublikasında dövlət dili haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən düzgün *deyil:***

A) Azərbaycan Respublikası dövlət dilinin işlənməsini, qorunmasını və inkişafını təmin edir.
B) Dövlət dilinin tətbiqinin normaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.
C) Azərbaycan dili ölkənin siyasi, ictimai, iqtisadi, elmi və mədəni həyatının bütün sahələrində işlədilir.
D) Dövlət dilini bilmək hər bir şəxsin borcudur.

**8. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən inzibati vəzifələrin 4-cü təsnifatına aiddir:**

A) Azərbaycan Respublikasının Hesablama Palatasının Aparatında şöbə müdiri vəzifəsi
B) Naxçıvan Muxtar Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (Ombudsmanın) aparat rəhbərinin müavini vəzifəsi

C) Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin aparat rəhbərinin müavini vəzifəsi
D) Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Aparatında sektor müdiri vəzifəsi

**9. Azərbaycan Respublikasının Konstitusiyasına əsasən ədalət mühakiməsini kassasiya qaydasında həyata keçirir:**
A) Azərbaycan Respublikasının Ali Məhkəməsi
B) Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi
C) Azərbaycan Respublikasının apellyasiya məhkəmələri
D) Azərbaycan Respublikasının Məhkəmə-Hüquq Şurası

**10. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən verilən ixtisas dərəcələri aiddir:**
- dövlət qulluğunun müşaviri
- dövlət qulluğunun kiçik müşaviri
- 1-ci dərəcə dövlət qulluqçusu

A) inzibati vəzifələrin üçüncü təsnifatına
B) inzibati vəzifələrin beşinci təsnifatına
C) inzibati vəzifələrin altıncı təsnifatına
D) inzibati vəzifələrin dördüncü təsnifatına

**11. Azərbaycan Respublikasının Konstitusiyasına əsasən yalnız referendumla həll edilə bilən məsələlərdir:**
A) Azərbaycan Respublikasının Konstitusiyasının qəbul edilməsi, Azərbaycan Respublikasının Konstitusiyasına əlavə və dəyişikliklər edilməsi, idarəetmə formasının və dövlət sərhədlərinin dəyişdirilməsi
B) Azərbaycan Respublikasının Konstitusiyasının qəbul edilməsi, Azərbaycan Respublikasının Konstitusiyasına əlavə və dəyişikliklər edilməsi, idarəetmə formasının və dövlət dilinin dəyişdirilməsi
C) Azərbaycan Respublikasının Konstitusiyasının qəbul edilməsi, Azərbaycan Respublikasının Konstitusiyasına dəyişikliklər edilməsi, dövlət sərhədlərinin dəyişdirilməsi
D) Azərbaycan Respublikasının Konstitusiyasının qəbul edilməsi, Azərbaycan Respublikasının Konstitusiyasına əlavə və dəyişikliklər edilməsi, müharibə elan edilməsi

**12. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən dövlət qulluqçusunun pensiyasının məbləği asılıdır:**
1. dövlət qulluğunda xidmət illərindən
2. vəzifə maaşının məbləğindən
3. ixtisas dərəcəsindən
4. dövlət məvacibinin məbləğindən
5. dövlət orqanının kateqoriyasından

A) 2, 3
B) 3, 5
C) 1, 5
D) 1, 4

**13. Azərbaycan Respublikasının Konstitusiyasına əsasən seçki və referendumda iştirak etmək hüququ yoxdur:**
A) məhkəmənin qərarı ilə fəaliyyət qabiliyyətsizliyi təsdiq olunmuş şəxslərin
B) islah işlərinə cəlb olunmuş şəxslərin
C) seçki komissiyasının üzvlərinin
D) məhkəmənin qərarı ilə azadlıqdan məhrum edilmiş şəxslərin

**14. "Məlumat azadlığı haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən məlumat mənbəyi hesab *edilmir?***
A) anonim məktublar
B) açıq çıxışlar
C) məlumatları əks etdirən sənədlər və başqa daşıyıcılar
D) kütləvi informasiya vasitələrinin məlumatları

**15. "Azərbaycan Respublikasının Dövlət gerbi haqqında" Əsasnamədə göstərilən hallardan başqa Dövlət gerbinin təsvirindən istifadə etmək hüququ verilə bilər:**
A) Azərbaycan Respublikasının Prezidenti tərəfindən
B) Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən
C) Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən
D) Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi tərəfindən

**16. "Dövlət qulluqçularının etik davranış qaydaları haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən dövlət qulluqçusunun ictimai və ya siyasi fəaliyyəti ilə bağlı düzgün *deyil:***
A) Dövlət qulluqçusu qulluq mövqeyindən istifadə edərək digər dövlət qulluqçularını ictimai birliklərin fəaliyyətində iştiraka təhrik edə bilər.

B) Qanunvericiliklə başqa qayda nəzərdə tutulmamışdırsa, dövlət qulluqçusu siyasi birliyə üzv olmaq hüququna malikdir.
C) Dövlət qulluqçusuna dövlət orqanlarında ictimai və siyasi birliklərin (həmkarlar ittifaqları istisna olmaqla) struktur bölmələrinin yaradılmasına yardım etmək qadağandır.
D) Dövlət qulluqçusuna seçkilər zamanı öz vəzifə mövqeyindən və səlahiyyətlərindən siyasi partiyaların xeyrinə istifadə etmək qadağandır.

**17. “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanunu şamil edilir:**
A) Mərkəzi Seçki Komissiyasının üzvlərinə
B) Hesablama Palatasının auditorlarına
C) yerli icra hakimiyyəti başçılarının müavinlərinə
D) mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərlərinin müavinlərinə

**18. “Vətəndaşların müraciətlərinə baxılması qaydası haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən vətəndaşların qəbul edilməsi ilə bağlı düzgün *deyil:***
A) Zəruri hallarda dövlət hakimiyyəti orqanları, idarə, təşkilat və müəssisələrin rəhbərləri və digər vəzifəli şəxsləri vətəndaşları dərhal qəbul etməlidirlər.
B) Vətəndaşlar əvvəlcədən məlumat verilən günlərdə və saatlarda qəbul edilməlidirlər.
C) Dövlət hakimiyyəti orqanları, idarə, təşkilat və müəssisələrin rəhbərləri və digər vəzifəli şəxsləri vətəndaşların qəbul edilməsinin təşkilini təmin etməlidirlər.
D) Bütün hallarda dövlət hakimiyyəti orqanları, idarə, təşkilat və müəssisələrin rəhbərləri və digər vəzifəli şəxsləri vətəndaşları dərhal qəbul etməlidirlər.

**19. “Korrupsiyaya qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən yaxın qohumların birgə işləməsi ilə əlaqədar tələbləri pozan şəxslər bu pozuntunu hansı müddətdə könüllü aradan qaldırmalıdır?**
A) pozuntunun aşkar edilməsindən sonra 30 iş günü müddətində
B) pozuntunun aşkar edilməsindən sonra 40 gün müddətində
C) pozuntunun aşkar edilməsindən sonra 30 gün müddətində
D) pozuntunun aşkar edilməsindən sonra 3 ay müddətində

**20. “Korrupsiyaya qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən korrupsiyaya şərait yaradan hüquqpozmalara aiddir:**
A) xidməti vəzifəsinin icrası ilə əlaqədar hər hansı hərəkətin edilməsi müqabilində vəzifəli şəxsə onun özü və ya üçüncü şəxslər üçün fiziki və ya hüquqi şəxs tərəfindən birbaşa və ya dolayı yolla maddi və sair nemətlər, imtiyazlar və ya güzəştlər təklif olunması, vəd edilməsi və ya verilməsi
B) vəzifəli şəxsin tərəfindən xidməti vəzifəsinin icrası ilə əlaqədar maddi və sair nemətləri, imtiyazları və ya güzəştləri haqqı ödənilmədən və ya bazar qiymətlərindən və ya dövlət tərəfindən tənzimlənən qiymətlərdən aşağı qiymətə əldə edilməsi
C) vəzifəli şəxs tərəfindən xidməti vəzifəsinin icrası ilə əlaqədar hər hansı hərəkətin edilməsi və ya belə hərəkətin edilməsindən imtina olunması müqabilində qanunsuz olaraq alınmış əmlakdan özü və ya üçüncü şəxslər üçün mənfəət əldə etmək məqsədi ilə istifadə edilməsi
D) vəzifəli şəxsin xidməti vəzifəsini icra etdiyi dövrdə elmi, pedaqoji və yaradıcılıq fəaliyyəti istisna olmaqla, digər ödənişli vəzifə tutması və ya fəaliyyət növü ilə məşğul olması

**21. Azərbaycan Respublikasının Konstitusiyasına əsasən Azərbaycan Respublikası Milli Məclisi aşağıdakılara dair ümumi qaydalar müəyyən *etmir:***
1. amnistiya
2. gömrük işi
3. inzibati ərazi bölgüsü
4. təhlükəsizliyin əsasları
5. rabitə və nəqliyyat işi
6. bələdiyyələrin hesbatlarının dinlənilməsi
A) 3, 4, 6
B) 2, 4, 6
C) 1, 3, 6
D) 1, 3, 5

**22. “Vətəndaşların müraciətlərinə baxılması qaydası haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən düzgündür:**
A) Dövlət hakimiyyəti orqanları, idarə, təşkilat və müəssisələrin rəhbərləri vətəndaşların təkliflərinin, ərizə və şikayətlərinin qəbul edilməsinin və onlara baxılmasının təşkili üçün məsuliyyət daşımırlar.
B) Vətəndaş böhtan məqsədilə ərizə və ya şikayət verdikdə, qanunvericiliyə uyğun olaraq məsuliyyət daşıyır.

C) Korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı müraciətlərə "Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq baxılır.
D) Hərbi qulluqçuların və onların ailə üzvlərinin müraciəti daxil olduğu gündən etibarən ən geci 20 gün ərzində baxılır.

**23. Azərbaycan Respublikasının Konstitusiyasına əsasən vətəndaşların əsas vəzifələri ilə bağlı aşağıda göstərilənlərdən hansı düzgün *deyil?***
A) Vətəni müdafiə Azərbaycan Respublikasının ərazisində yaşayan hər bir şəxsin borcudur.
B) Ətraf mühitin qorunması hər bir şəxsin borcudur.
C) Tarix və mədəniyyət abidələrini qorumaq hər bir şəxsin borcudur.
D) Qanunla müəyyən edilmiş vergiləri tam həcmdə və vaxtında ödəmək hər bir kəsin borcudur.

**24. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən dövlət qulluqçusunun əsas hüquqlarına aid *deyil:***
A) ictimai birliklərdən lazımi informasiya və materiallar tələb etmək və almaq
B) sərbəst qaydada pedaqoji və başqa ödənişli fəaliyyətlə məşğul olmaq
C) qiymətli kağızlardan, rentadan və icarədən gəlir götürmək
D) vəzifə maaşına əlavələr və mükafatlar almaq

**25. "Dövlət hakimiyyəti orqanlarında, idarə, təşkilat və müəssisələrində kargüzarlığın aparılmasına dair Təlimat"a əsasən qərarların qeydə alınması kitabında göstərilir:**
A) qərarın qüvvəyə minmə tarixi
B) qərarın qısa məzmunu
C) qərarın qəbul edilmə səbəbi
D) qərarın adı

**26. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən dövlət qulluqçusu dövlət qulluğunda irəli çəkilə bilər:**
A) yalnız müsahibə yolu ilə
B) qulluqda yüksəliş, müsahibə və ya müsabiqə yolu ilə
C) yalnız müsabiqə və müsahibə yolu ilə
D) yalnız qulluqda yüksəliş yolu ilə

**27. "Dövlət hakimiyyəti orqanlarında, idarə, təşkilat və müəssisələrində kargüzarlığın aparılmasına dair Təlimat"a əsasən aktın hazırlanması və tərtib edilməsi ilə bağlı düzgün *deyil:***
A) Aktın mətni giriş və şərh hissələrindən ibarət olmalıdır.
B) Şərh hissəsində akt tərtib edilməsinin məqsəd və vəzifələri, aparılmış işin mahiyyəti və xarakteri, müəyyən edilmiş faktlar, habelə nəticələr və təkliflər ifadə olunur.
C) Aktın mətninin sonunda (imzalardan qabaq) qəbul edilən qərarlar göstərilməlidir.
D) Giriş hissəsində aktın tərtib edilməsinin əsası göstərilir.

**28. Azərbaycan Respublikasının Konstitusiyasına əsasən Naxçıvan Muxtar Respublikasında yerli icra hakimiyyətlərinin başçıları hansı qaydada vəzifəyə təyin edilir?**
A) Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri təyin edir
B) Azərbaycan Respublikasının Prezidentinin razılığı ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri təyin edir
C) Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin təqdimatı ilə Azərbaycan Respublikasının Prezidenti təyin edir
D) təqdimat olmadan Azərbaycan Respublikasının Prezidenti birbaşa təyin edir

**29. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən dövlət orqanlarında inzibati vəzifələrin altıncı təsnifatına uyğun olan vəzifələrin tutulması həyata keçirilir:**
A) qulluqda yüksəliş yolu ilə
B) yalnız daxili müsahibə yolu ilə
C) müsabiqə və qulluqda yüksəliş yolu ilə
D) müsabiqə və müsahibə yolu ilə

**30. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən dövlət orqanları kateqoriyalar üzrə təsnifləşdirilərkən nəzərə *alınmır:***
A) funksiyası
B) yurisdiksiyası
C) statusu
D) iyerarxiyası

**31. “Normativ hüquqi aktlar haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən texniki normativ hüquqi aktlara aid *deyil:***
A) aviasiya qaydaları
B) gigiyena məqalələri
C) baytarlıq qaydaları
D) farmakopeya məqalələri

**32. “Dövlət orqanlarında dövlət qulluğuna müsabiqə vasitəsilə qəbul Qaydaları”na əsasən inzibati vəzifələrin beşinci-yeddinci təsnifatlarına uyğun olan vakant vəzifələrin tutulmasının ümumi şərtləri müəyyən edilir:**
A) Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya tərəfindən
B) Azərbaycan Respublikasının Prezidenti tərəfindən
C) Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən
D) Azərbaycan Respublikasının Dövlət Qulluğunu İdarəetmə Şurası tərəfindən

**33. Azərbaycan Respublikasının Konstitusiyasına əsasən Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin həll etdiyi məsələlərə aid *deyil:***
A) Naxçıvan Muxtar Respublikasının büdcəsinin təsdiqi
B) Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti tərkibinin təsdiqi
C) Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə etimad
D) Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilər

**34. “Korrupsiyaya qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının Qanununun məqsədi üçün vəzifəli şəxs hesab *edilmir:***
A) Azərbaycan Respublikasının dövlət orqanlarında seçkili vəzifələrə namizədliyi qanunla müəyyən olunmuş qaydada qeydə alınmış şəxslər
B) öz nüfuzundan və ya əlaqələrindən istifadə edərək vəzifəli şəxsin qərarına qanunsuz təsir göstərmək müqabilində maddi və sair nemətlər, imtiyazlar və güzəştlər əldə edən şəxslər
C) yerli özünüidarəetmə orqanlarında təşkilati-sərəncamverici və ya inzibati-təsərrüfat funksiyalarını həyata keçirən şəxslər
D) dövlətin nəzarət səhm zərfinə sahib olduğu təsərrüfat subyeklərində təşkilati-sərəncamverici və ya inzibati-təsərrüfat funksiyalarını həyata keçirən şəxslər

**35. “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən birinci kateqoriya dövlət orqanı *deyil:***
A) Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi
B) Azərbaycan Respublikasının Hesablama Palatası
C) Azərbaycan Respublikasının Baş Prokurorluğu
D) Məhkəmə-Hüquq Şurasının Aparatı

**36. Azərbaycan Respublikasının Konstitusiyasına əsasən Milli Məclisin həll etdiyi məsələlərə aid *deyil:***
A) ticarət işi və birja fəaliyyəti
B) referendum təyin edilməsi
C) bələdiyyələrin hesabatlarının dinlənilməsi
D) inzibati ərazi bölgüsü

**37. “Vətəndaşların müraciətlərinə baxılması qaydası haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən dövlət hakimiyyəti orqanları tərəfindən müraciətlərin qəbul edilməsi və cavablandırılması işinin elektron formada həyata keçirilməsi ilə bağlı düzgündür:**
A) Dövlət hakimiyyəti orqanları müraciətlərin qəbul edilməsi və cavablandırılması işini elektron formada həyata keçirə bilər.
B) Yerli icra hakimiyyəti orqanları istisna olmaqla digər icra hakimiyyəti orqanları müraciətlərin qəbul edilməsi və cavablandırılması işini elektron formada həyata keçirə bilər.
C) Yalnız məhkəmə və qanunvericilik hakimiyyəti orqanları müraciətlərin qəbul edilməsi və cavablandırılması işini elektron formada həyata keçirə bilər.
D) Dövlət hakimiyyəti orqanları müraciətlərin qəbul edilməsi və cavablandırılması işini elektron formada həyata keçirə bilməz.

**38. “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən Azərbaycan Respublikasının Nazirlər Kabinetinin Aparatında sektor müdiri vəzifəsinə (ilk dəfə dövlət qulluğuna qəbul olunaraq) təyin olunan şəxsə ilk öncə hansı ixtisas dərəcəsi verilir:**

A) dövlət qulluğunun baş müşaviri
B) dövlət qulluğunun müşaviri
C) 1-ci dərəcə dövlət qulluqçusu
D) dövlət qulluğunun kiçik müşaviri

**39. “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən Azərbaycan Respublikasının Hesablama Palatasının Aparatında sektor müdiri vəzifəsinə (ilk dəfə dövlət qulluğuna qəbul olunaraq) təyin olunan şəxsə ilk öncə hansı ixtisas dərəcəsi verilir:**

A) dövlət qulluğunun baş müşaviri
B) dövlət qulluğunun müşaviri
C) 1-ci dərəcə dövlət qulluqçusu
D) dövlət qulluğunun kiçik müşaviri

**40. “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən dövlət qulluğuna xitam verilməsinin əsaslarına aid *deyil:***

A) dövlət qulluğunda olmanın yuxarı yaş həddinə çatdıqda
B) qanunvericiliyin tələbləri pozularaq qulluğa qəbul edildikdə
C) başqa işə keçdikdə
D) dövlət orqanı ləğv edildikdə

**41. “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən dövlət qulluğuna qəbulla bağlı keçirilən müsabiqə hansı mərhələlərdən ibarətdir?**

A) test imtahanı, inşa və müsahibədən
B) test imtahanı və müsahibədən
C) yalnız vahid test imtahanından
D) yalnız müsahibədən

**42. “Azərbaycan Respublikasının Dövlət himni haqqında Əsasnamə”yə əsasən Dövlət himninin mətn və musiqisi hansı normativ hüquqi aktla təsdiq edilmişdir?**

A) “Azərbaycan Respublikasının Dövlət himni haqqında” Azərbaycan Respublikasının Qanunu ilə
B) Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə
C) “Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında” Konstitusiya Aktı ilə
D) “Azərbaycan Respublikasının Dövlət himni haqqında Əsasnamə” ilə

**43. “Dövlət qulluqçularının etik davranış qaydaları haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən etik davranış qaydalarına əməl olunmasına xidməti qaydada nəzarəti həyata keçirir:**

A) birbaşa rəhbər
B) yuxarı orqan
C) dövlət orqanının rəhbəri
D) nəzarət orqanı

**44. “Dövlət qulluqçularının etik davranış qaydaları haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən etik davranış qaydalarına aşağıdakılardan hansı aid *deyil?***

A) korrupsiyanın qarşısının alınması
B) hədiyyə vermə ilə əlaqədar güzəştlər
C) maddi və qeyri-maddi nemətlərin, imtiyazların və ya güzəştlərin əldə edilməsinə yol verilməməsi
D) maraqlar toqquşmasının qarşısının alınması

**45. “Azərbaycan Respublikası Dövlət bayrağının istifadəsi qaydaları haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən Dövlət bayrağının daimi qaldırılmalı olduğu yerlərə aid *deyil:***

A) Naxçıvan Muxtar Respublikasının mərkəzi icra hakimiyyəti orqanlarının binaları
B) Azərbaycan Respublikası hərbi məhkəmələrinin binaları
C) yerli icra hakimiyyəti orqanlarının binaları
D) Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının binası

**46. Azərbaycan Respublikasının Konstitusiyasına əsasən tarix və mədəniyyət abidələrini qorumaq kimin borcudur?**

A) yalnız vətəndaşların
B) dövlətin
C) hər bir şəxsin
D) vətəndaş cəmiyyətinin

**47. “Dövlət qulluqçularının etik davranış qaydaları haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən düzgün *deyil:***

A) Dövlət qulluqçusu xidməti vəzifələrinin yerinə yetirilməsi zamanı siyasi bitərəfliyə əməl etməyə borclu deyil.
B) Dövlət qulluqçusu xidməti fəaliyyəti zamanı əldə etdiyi məlumatları şəxsi maraqları üçün istifadə edə bilməz.
C) Dövlət qulluqçusu bütün hallarda hər bir şəxs üçün vicdanlılıq nümunəsi olmalıdır.
D) Şəxsin, cəmiyyətin və dövlətin maraqları naminə dövlət qulluqçuları öz vəzifə borclarını səmərəli yerinə yetirməyə borcludur.

**48. “Korrupsiyaya qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən yerli özünüidarəetmə orqanlarına seçilmiş şəxslər korrupsiya ilə əlaqədar hüquqpozmalar törətdikdə və bu hüquqpozmalar inzibati və ya cinayət məsuliyyəti yaratmadıqda korrupsiyaya qarşı mübarizə aparan orqan hansı tədbirləri görür?**
A) həmin şəxsi intizam məsuliyyətinə cəlb edir
B) bu barədə müvafiq seçki komissiyasına məlumat verir
C) bu barədə müvafiq məhkəməyə məlumat verir
D) bu barədə həmin şəxsin seçildiyi yerli özünüidarəetmə orqanına məlumat verir

**49. “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən dövlət qulluqçusunun əlavə təhsil alması üçün əsas *deyil:***
A) dövlət qulluğunda daha yüksək vəzifəyə təyin olunması
B) dövlət qulluqçusunun şəxsi təşəbbüsü
C) dövlət qulluqçusunun ehtiyyat kadlar siyahısına daxil edilməsi
D) dövlət qulluqçusuna növbəti ixtisas dərəcəsinin verilməsi

**50. Azərbaycan Respublikasının Konstitusiyasına əsasən seçki hüququ qanunla məhdudlaşdırıla bilən şəxslərə aid *deyil:***
A) hakimlər və din xadimləri
B) bələdiyyə üzvləri
C) dövlət məmurları və hərbi qulluqçular
D) azadlıqdan məhrum edilmiş şəxslər

**51. Azərbaycan Respublikasının Konstitusiyasına əsasən Azərbaycan Respublikasının apellyasiya məhkəmələri hakimlərinin işdən kənarlaşdırılması haqqında Milli Məclisin qərarı qəbul edilir:**
A) 63 səs çoxluğu ilə
B) 95 səs çoxluğu ilə
C) 83 səs çoxluğu ilə
D) 73 səs çoxluğu ilə

**52. “Dövlət hakimiyyəti orqanlarında, idarə, təşkilat və müəssisələrində kargüzarlığın aparılmasına dair Təlimat”a əsasən sənəd hansı məqsədlə rəsmiləşdirilməlidir?**
A) başqa təşkilata göndərilməsi üçün
B) rəsmi xarakter və hüquqi qüvvə verilməsi üçün
C) qeydiyyata alınması üçün
D) işə tikilərək arxivləşdirilməsi üçün

**53. “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən dövlət qulluğu ilə əlaqədar məhdudiyyətlərəaid *deyil:***
A) bələdiyyə orqanının işi üzrə üçüncü şəxslərin vəkili olmaq
B) dövlət orqanı rəhbərinin icazəsi olmadan başqa ödənişli fəaliyyətlə məşğul olmaq
C) dövlət orqanlarında əlavə ödənişli vəzifə tutmaq
D) dövlət orqanı rəhbərinə bildirmədən xarici ölkəyə getmək

**54. Azərbaycan Respublikasının Konstitusiyasına əsasən Azərbaycan Respublikasının Milli Məclisi səlahiyyətlidir:**
A) 63 deputatının səlahiyyətləri təsdiq olunduqda
B) 83 deputatının səlahiyyətləri təsdiq olunduqda
C) bütün seçilmiş deputatların səlahiyyətləri təsdiq olunduqda
D) 42 deputatının səlahiyyətləri təsdiq olunduqda

**55. Azərbaycan Respublikasının Konstitusiyasına əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti Azərbaycan Respublikası Prezidentinə istefa verir:**
A) yeni seçilmiş Azərbaycan Respublikası Prezidenti vəzifəsini tutduğu və səlahiyyətlərini icra etməyə başladığı gün
B) yeni seçilmiş Azərbaycan Respublikası Prezidenti and içməzdən 3 gün əvvəl
C) yeni seçilmiş Azərbaycan Respublikası Prezidenti and içdiyi gündən başlayaraq 3 gün ərzində
D) Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi seçkilərin nəticələrini rəsmən elan etdiyi gündən başlayaraq 3 gün ərzində

**56. Azərbaycan Respublikasının Konstitusiyasına əsasən pul nişanlarının tədavülə buraxılması və tədavüldən çıxarılması hüququ mənsubdur:**
A) Azərbaycan Respublikasının Mərkəzi Bankına
B) Azərbaycan Respublikasının Hesablama Palatasına
C) Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə
D) Azərbaycan Respublikasının Nazirlər Kabinetinə

**57. Azərbaycan Respublikasının Konstitusiyasına əsasən xalqa qarşı ən ağır cinayətdir:**
A) dövlətə qarşı müharibə elan olunması
B) insan və vətəndaşların hüquq və azadlıqlarının pozulması
C) dövlətə qarşı qiyama və dövlət çevrilişinə kömək
D) hakimiyyətin mənimsənilməsi

**58. Azərbaycan Respublikasının Konstitusiyasına əsasən seçki hüquqları məhdudlaşdırıla bilməz:**
A) azadlıqdan məhrum edilmiş şəxslərin
B) hakimlərin
C) hərbi qulluqçuların
D) dövlət məmurlarının

**59. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən aşağıda göstərilənlərdən hansı dövlət qulluğunun əsas prinsipi *deyil?***
A) qulluq borcunun yerinə yetirilməsi üçün dövlət qulluqçusunun cavabdehlik daşıması, eləcə də dövlət qulluqçusunun hərəkətlərinə görə dövlət orqanının cavabdehlik daşıması
B) irqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, sosial mənşəyindən, habelə qulluqçuların işgüzarlıq keyfiyyətlərinə bağlı olmayan başqa səbəblərdən asılı olmayaraq dövlət qulluqçularının hüquq bərabərliyi
C) dövlət qulluqçularının potensialının səmərəli istifadəsi, xidməti və peşəkarlıq səviyyəsinin artırılması məqsədi ilə onların rotasiyası
D) təqsirsizlik prezumpsiyası

**60. "Məlumat azadlığı haqqında" Azərbaycan Respublikasının Qanunu tənzimləyir:**
A) dövlət sirrinə aid olan məlumatlarla əlaqədar yaranan münasibətləri
B) məlumatların məxfiləşdirilməsi ilə ilə əlaqədar yaranan münasibətləri
C) məlumat azadlığının həyata keçirilməsi ilə əlaqədar yaranan münasibətləri
D) məlumatın hazırlanması ilə əlaqədar yaranan münasibətləri

**61. "Azərbaycan Respublikasında dövlət dili haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən Azərbaycan coğrafi adlarının xarici dillərdə verilərkən nəzərə alınmalıdır:**
1. Azərbaycan dilinin orfoqrafik normaları
2. anlaşıqlı (başa düşülən) olması
3. Azərbaycan dilində səslənməsi
4. əcnəbi dildə səslənməsi
5. beynəlxalq yazılış qaydalarına uyğunluğu
A) 1, 3
B) 3, 5
C) 1, 5
D) 2, 4

**62. "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununa əsasən Azərbaycan Respublikasının Mərkəzi Bankının qərarları aiddir:**
A) normativ hüquqi aktlara
B) texniki normativ hüquqi aktlara
C) normativ xarakterli aktlara
D) qeyri-normativ hüquqi aktlara

**63. "Vətəndaşların müraciətlərinə baxılması qaydası haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən dövlət hakimiyyəti orqanlarında korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı müraciətlərə baxılması qaydası düzgün verilmişdir?**
A) Müraciət daxil olduqda, dövlət hakimiyyəti orqanının rəhbəri tərəfindən araşdırma aparılır, xidməti araşdırma 20 gün müddətinə başa çatdırılmalıdır və əlavə materiallar tələb olunarsa bu müddət daha 20 gün artırıla bilər.
B) Müraciət daxil olduqda, dövlət hakimiyyəti orqanının rəhbəri tərəfindən xidməti araşdırma təyin edilir, xidməti araşdırma 20 gün müddətinə başa çatdırılmalıdır.
C) Müraciət daxil olduqda, dövlət hakimiyyəti orqanının rəhbəri tərəfindən araşdırma aparılır, xidməti araşdırma 30 gün müddətinə başa çatdırılmalıdır.
D) Müraciət daxil olduqda, aidiyyəti struktur bölmənin rəhbəri tərəfindən xidməti araşdırma təyin edilir, xidməti araşdırma 20 gün müddətinə başa çatdırılmalıdır.

**64. "Dövlət hakimiyyəti orqanlarında, idarə, təşkilat və müəssisələrində kargüzarlığın aparılmasına dair Təlimat"a əsasən sənədin tarixinin yazılışı düzgün *verilməyib:***
A) 14 noyabr 2007-ci il
B) 14.11.2007-ci il
C) 14.11.07
D) 14/11/07

**65. "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununa əsasən sərlöhvə nədir?**
A) aktın qeydiyyat nömrəsi
B) normativ hüquqi aktı rəsmi imzalamaq səlahiyyətinə malik olan şəxsin imzası
C) aktın növü
D) normativ hüquqi aktın adı

**66. "Dövlət hakimiyyəti orqanlarında, idarə, təşkilat və müəssisələrində kargüzarlığın aparılmasına dair Təlimat"a əsasən protokolun mətni ibarət olmalıdır:**
A) giriş və şərh hissələrindən
B) giriş və əsas hissələrindən
C) şərh və sərəncam hissələrindən
D) şərh və əsas hissələrindən

**67. "Vətəndaşların müraciətlərinə baxılması qaydası haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən əlavə öyrənilməsi və yoxlanılması tələb edilməyən müraciətə baxılmalıdır:**
A) ən geci 20 iş günü ərzində
B) ən geci 15 iş günü ərzində
C) ən geci 15 gün ərzində
D) ən geci 20 gün ərzində

**68. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən dövlət qulluqçusuna tətbiq edilən intizam tənbeh tədbirlərinə aid *deyil:***
A) xəbərdarlıq
B) dövlət qulluğundan azad edilməsi
C) daha aşağı təsnifatdan olan digər vəzifəyə keçirilməsi
D) ixtisas dərəcəsinin bir pillə aşağı salınması

**69. Azərbaycan Respublikasının Konstitusiyasına əsasən Azərbaycan Respublikası vətəndaşlarının əsas vəzifələrinə aiddir:**
A) tətil etmək
B) ətraf mühiti qorumaq
C) mədəniyyət təsisatlarından və mədəni sərvətlərdən istifadə etmək
D) sərbəst toplaşmaq

**70. Azərbaycan Respublikasının Konstitusiyasına əsasən Naxçıvan Muxtar Respublikasının statusu:**
A) Azərbaycan Respublikasının tərkibində suveren dövlətdir
B) Azərbaycan Respublikasının tərkibində müstəqil dövlətdir
C) Azərbaycan Respublikasının tərkibində muxtar dövlətdir
D) Azərbaycan Respublikasının tərkibində federativ dövlətdir

**71. "Azərbaycan Respublikasında dövlət dili haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən inzibati ərazi vahidlərinin adları dövlət dili ilə yanaşı xarici dillərdə də yazıldığı hallarda inzibati ərazi vahidinin adı hansı qaydada yazılır?**
A) dövlət dilində şaquli şəkildə xarici dildə isə üfuqi şəkildə verilməlidir
B) əvvəlcə dövlət dilində və ondan sonra xarici dildə verilməlidir
C) həm xarici dildə, həm də dövlət dilində şaquli şəkildə eyni sırada verilməlidir
D) əvvəlcə xarici dildə və ondan sonra dövlət dilində verilməlidir

**72. Azərbaycan Respublikasının Konstitusiyasına əsasən Azərbaycan Respublikası Milli Məclisinin deputatlarının seçkilərinin nəticələrini yoxlayır və təsdiq edir:**
A) Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi
B) Azərbaycan Respublikasının Nazirlər Kabineti
C) Azərbaycan Respublikasının Prezidenti
D) Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası

**73. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən aşağıdakı şərtlərin hansından asılıolmayaraq şəxsin dövlət qulluğuna qəbul edilmək hüququ vardır?**
1. təhsilindən
2. sosial mənşəyindən
3. yaşayış yerindən
4. ictimai və digər birliklərə mənsubiyyətindən
5. yaşından
6. əmlak vəziyyətindən
A) 1, 3, 5, 6
B) 2, 4, 5, 6
C) 1, 2, 5, 6
D) 2, 3, 4, 6

**74. Azərbaycan Respublikasının Konstitusiyasına əsasən Prezident seçilmiş şəxs and içir:**
A) Milli Məclis deputatlarının iştirakı ilə
B) Nazirlər Kabineti üzvlərinin iştirakı ilə
C) Konstitusiya Məhkəməsi hakimlərinin iştirakı ilə
D) Təhlükəsizlik Şurası üzvlərinin iştirakı ilə

**75. Dövlət qulluqçularının etik davranış qaydaları haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən düzgün *deyil:***
A) Dövlət qulluqçusu xidməti fəaliyyəti zamanı əldə etdiyi məlumatları şəxsi maraqları üçün istifadə edə bilməz.
B) Dövlət qulluqçusu qulluq etdiyi dövrdə maraqların toqquşmasına yol verməməlidir.
C) Dövlət qulluqçusu ictimai və ya siyasi birliyə üzv olmaq hüququna malik deyil.
D) Dövlət qulluqçusunun qanunsuz olaraq imtiyazlar və ya güzəştlər əldə etməyə yönəlmiş hərəkətlər etməsi qadağandır.

**76. "Dövlət orqanlarında dövlət qulluqçusuna dövlət qulluğunda qulluq stajına görə əlavə haqqın məbləğlərinin müəyyənləşdirilməsi Qaydaları"na əsasən dövlət qulluğunda qulluq stajının müddəti 1 ildən – 5 ilədək olduqda aylıq vəzifə maaşının neçə faizi miqdarında əlavə haqq verilir?**
A) 20 %-i
B) 5 %-i
C) 10 %-i
D) 15 %-i

**77. Azərbaycan Respublikasının Konstitusiyasına əsasən Konstitusiyaya əlavələr Milli Məclisdə qəbul edilir:**
A) 63 səs çoxluğu ilə
B) 83 səs çoxluğu ilə
C) sadə səs çoxluğu ilə
D) 95 səs çoxluğu ilə

**78. "Dövlət qulluqçularının etik davranış qaydaları haqqında" Azərbaycan Respublikası Qanununda təminatlar sistemi ilə bağlı təsbit olunmuş müddəada nəzərdə *tutulmamışdır?***
A) Dövlət qulluqçusu, onun birbaşa və ya yuxarı rəhbəri tərəfindən bu fəsildə nəzərdə tutulmuş tədbirlər görülür.
B) Dövlət qulluqçusunun yuxarı orqanı tərəfindən müvafiq tədbirlər görülür.
C) Dövlət qulluqçusunun davranışının etik davranış qaydalarına uyğunluğu onun birbaşa və ya yuxarı rəhbəri tərəfindən müntəzəm təhlil edilir.
D) Dövlət qulluqçusunun davranışının etik davranış qaydalarına uyğunluğu onun özü tərəfindən müntəzəm təhlil edilir.

**79. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən seçki komissiyasının həlledici səs hüquqlu üzvü eyni zamanda dövlət qulluğunda:**
A) yalnız dövlət orqanı rəhbərinin icazəsi ilə ola bilər
B) müstəsna hallarda ola bilər
C) heç bir halda ola bilməz
D) bütün hallarda ola bilər

**80. "Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən vəzifəli şəxsin statusundan, təmsil etdiyi orqanın statusundan, vəzifə səlahiyyətlərindən və ya həmin status və səlahiyyətlərdən irəli gələn imkanlardan istifadə etməklə, şəxsi maraqlarına aid məsələlərin həllinə təsir etməsi:**
A) (bilavasitə) korrupsiya hüquqpozmasıdır
B) korrupsiya ilə əlaqədar hüquqpozmadır
C) korrupsiya ilə əlaqədar hüquqpozma deyil
D) korrupsiyaya şərait yaradan hüquqpozma deyil

**81. Azərbaycan Respublikasının Konstitusiyasına əsasən hansı məsələlərə dair referendum keçirilə bilməz?**
A) ölkənin müəyyən hissəsinə müxtariyyət statusunun verilməsi
B) dövlət rəmzlərinin dəyişdirilməsi
C) dövlət sərhədlərinin dəyişdirilməsi
D) vergilər və dövlət büdcəsi

**82. "Məlumat azadlığı haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən müqavilənin olmamasına görə məlumatı verməkdən kimlər imtina edə *bilməzlər?***
A) dövlət hakimiyyəti orqanları və bələdiyyələr
B) yalnız hüquqi şəxslər
C) beynəlxalq təşkilatlar
D) fiziki və hüquqi şəxslər

**83. "Dövlət hakimiyyəti orqanlarında, idarə, təşkilat və müəssisələrində kargüzarlığın aparılmasına dair Təlimat"a əsasən sənədlərin səhifələri hansı qaydada nömrələnməlidir?**
A) İki və daha artıq səhifəsi olan sənədlər ikinci səhifədən başlayaraq ərəb rəqəmləri ilə nömrələnməlidir.
B) On və daha artıq səhifəsi olan sənədlər ikinci səhifədən başlayaraq rum rəqəmləri ilə nömrələnməlidir.
C) İyirmi və daha artıq səhifəsi olan sənədlər ərəb rəqəmləri ilə, digər sənədlər isə birinci səhifədən başlayaraq ərəb və ya rum rəqəmləri ilə nömrələnməlidir.
D) Rəsmi sənədlərin səhifələrinin nömrələnməsinə yol verilmir.

**84. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən attestasiya komissiyasının tərkibini təsdiq edir:**

A) Dövlət Qulluğunu İdarəetmə Şurası
B) müvafiq dövlət orqanının rəhbəri
C) yuxarı dövlət orqanının rəhbəri
D) Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya

**85. Azərbaycan Respublikasının Konstitusiyasına əsasən Azərbaycan Respublikasında qanunvericilik, icra və məhkəmə hakimiyyətləri arasında səlahiyyətlər bölgüsü ilə bağlı mübahisəli məsələləri kim həll edir?**

A) Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi
B) Azərbaycan Respublikasının Prezidenti
C) Azərbaycan Respublikasının Milli Məclisi
D) Azərbaycan Respublikasının Prezidenti və Milli Məclisi

**86. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən 4-cü kateqoriya dövlət orqanıdır:**

A) hərbi məhkəmələr
B) inzibati-iqtisadi məhkəmələr
C) ağır cinayətlər məhkəmələri
D) yerli icra hakimiyyəti orqanları

**87. "Vətəndaşların müraciətlərinə baxılması qaydası haqqında" Azərbaycan Respublikasının Qanunu şamil olunur:**

A) dövlət orqanına pozulmuş hüququn bərpası tələbi barədə müraciətlərə
B) referendumun keçirilməsi ilə əlaqədar müraciətlərə
C) məhkəmə icraatı çərçivəsində vətəndaşların etdiyi müraciətlərə
D) hərbi qulluqçuların xidmətlə əlaqədar müraciətlərinə

**88. "Dövlət qulluqçularının etik davranış qaydaları haqqında" Azərbaycan Respublikasının Qanununun məqsədlərinə aid *deyil?***

A) dövlət qulluqçularının fəaliyyətində maraqların toqquşmasının qarşısının alınması
B) dövlət orqanları və dövlət qulluqçularının fəaliyyətində səmərəliliyin və şəffaflığın artırılması
C) dövlət qulluğu sahəsində dövlətlə dövlət qulluqçuları arasında yaranan münasibətlərin tənzimlənməsi
D) vətəndaşların dövlət orqanlarına və dövlət qulluqçularına etimadının yüksəldilməsi

**89. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən inzibati vəzifələrin 5-ci təsnifatına aiddir:**

A) Azərbaycan Respublikası Nazirlər Kabinetinin Aparatında məsləhətçi vəzifəsi
B) Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatında sektor müdiri vəzifəsi
C) Azərbaycan Respublikası Hesablama Palatasının Aparatında baş məsləhətçi vəzifəsi
D) Azərbaycan Respublikasının Təhsil Nazirliyinin Aparatında sektor müdiri vəzifəsi

**90. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən Dövlət Qulluğunu İdarəetmə Şurasının hüquqi statusu ilə bağlı göstərilənlərdən hansı düzgündür?**

A) dövlət orqanıdır, lakin ictimai əsaslarla fəaliyyət göstərir
B) ali kateqoriya dövlət orqanıdır
C) dövlət orqanı deyil
D) qeyri-hökumət təşkilatıdır

**91. Azərbaycan Respublikasının Konstitusiyasına əsasən hamı bərabərdir:**

A) Prezident qarşısında
B) hüquq və öhdəliklər qarşısında
C) dövlət qarşısında
D) qanun və məhkəmə qarşısında

**92. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən dövlət pensiyası verilməsi üçün lazım olan xidmət illərinin minimum həddi:**

A) 5 il
B) 7 il
C) 10 il
D) 3 il

**93. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən dövlət qulluğunda irəli çəkilmək hüququ həyata keçirilir:**

1. qulluqda yüksəliş yolu ilə;
2. müsahibə yolu ilə;
3. attestasiya yolu ilə;
4. təyinat yolu ilə;

A) 3, 4
B) 1, 2
C) 1, 3
D) 2, 4

**94. “Korrupsiyaya qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən korrupsiya ilə əlaqədar hüquqpozmaların törədilməsi inzibati və ya cinayət məsuliyyəti yaratdıqda, korrupsiyaya qarşı mübarizəni həyata keçirir:**
A) hüquq-mühafizə orqanları
B) məhkəmələr
C) Azərbaycan Respublikasının Korrupsiyaya Qarşı Mübarizə üzrə Komissiyası
D) Azərbaycan Respublikasının Dövlət Qulluğunu İdarəetmə Şurası

**95. Azərbaycan Respublikasının Konstitusiyasına əsasən dövlətin ali məqsədlərinə aiddir:**
A) idarəetmədə hakimiyyət bölgüsü prinsipinin təmin edilməsi
B) dövlətin hüquqi əsaslarla idarə olunmasının təmin edilməsi
C) bilavasitə və nümayəndəli demokratiya təsisatlarının inkişaf etdirilməsi
D) Azərbaycan Respublikasının vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsi

**96. “Azərbaycan Respublikası Dövlət bayrağının istifadəsi qaydaları haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən Dövlət bayrağının təsvirinin istifadəsinə aid *deyil:***
A) Beynəlxalq uçuşları həyata keçirən Azərbaycan Respublikasının mülki hava gəmilərinin üzərində vurulur.
B) Azərbaycan Respublikası Dövlət Sərhəd Xidməti sərhəd gəmilərinin və qayıqlarının fərqləndirici nişanı kimi istifadə olunur.
C) Azərbaycan Respublikasının hüdudlarından kənara uçuşlar üçün istifadə olunan hərbi nəqliyyat hava gəmilərinin üzərində vurulur.
D) Azərbaycan Respublikasının Milli Məclisinin rəsmi blanklarından istifadə edilir.

**97. Azərbaycan Respublikasının Konstitusiyasına əsasən insan və vətəndaş hüquqlarının və azadlıqlarının pozulması ilə əlaqədar mübahisələri həll edir:**
A) məhkəmələr
B) Milli Məclis
C) Ombudsman
D) Ədliyyə Nazirliyi

**98. “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən göstərilən ixtisas dərəcələrindən hansı yardımçı vəzifələrin ikinci təsnifatına aid *deyil?***
A) dövlət qulluğunun baş referenti
B) dövlət qulluğunun 1-ci dərəcə referenti
C) dövlət qulluğunun böyük referenti
D) dövlət qulluğunun 2-ci dərəcə referenti

**99. “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən dövlət qulluğunda olmanın yuxarı yaş həddini tapın:**
A) 75
B) 80
C) 60
D) 65

**100. “Dövlət qulluqçularının etik davranış qaydaları haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən dövlət orqanlarında etik davranış qaydalarına əməl edilməsinə nəzarət edən müvafiq dövlət orqanının səlahiyyətlərinə aid *deyil:***
A) dövlət qulluqçularının etik davranış məsələləri üzrə ictimai rəyin öyrənilməsi və bununla bağlı maarifləndirmənin həyata keçirilməsi üçün tədbirlər görmək
B) etik davranış qaydalarına əməl edilməsi vəziyyətini öyrənmək və bu barədə məlumatları ümumiləşdirmək
C) dövlət qulluqçularından və digər şəxslərdən bu qanunun müddəalarının pozulması ilə bağlı şikayətlər və məlumatlar qəbul etmək
D) etik davranış qaydalarının pozulmasının nəticələrinin aradan qaldırmaq, habelə dövlət orqanına ictimai etimadın artırılması üçün tədbirlər görmək

**101. “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən Azərbaycan Respublikasının Dövlət Qulluğunu İdarəetmə Şurasının üzvlərini təyin *etmir:***
A) Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi
B) Azərbaycan Respublikasının Milli Məclisi
C) Azərbaycan Respublikasının Prezidenti
D) Azərbaycan Respublikasının Ali Məhkəməsi

**102. Azərbaycan Respublikasının Konstitusiyasına əsasən başqa dövlətə verilməsinə yol verilmir:**
A) inhisarçılıq fəaliyyətinə görə təqib edilən şəxslərin
B) hərbi birləşmələrdə iştirakına görə təqib edilən şəxslərin
C) siyasi əqidəsinə görə təqib edilən şəxslərin
D) dini fəaliyyətinə görə təqib edilən şəxslərin

**103. Azərbaycan Respubikasının Konstitusiyasına əsasən normativ hüquqi aktların müvafiq normalarına rəsmi şərh verə bilər:**

A) Azərbaycan Respublikasının Məhkəmə-Hüquq Şurası
B) Azərbaycan Respublikasının Ali Məhkəməsi
C) Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi
D) Azərbaycan Respublikasının Nazirlər Kabineti

**104. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən inzibati və yardımçı vəzifələrin təsnifat toplusu təsdiq edilib:**

A) Azərbaycan Respublikasının Milli Məclisinin qərarı ilə
B) Azərbaycan Respublikasının Nazirlər Kabinetinin qərarı ilə
C) Azərbaycan Respublikasının Prezidentinin Fərmanı ilə
D) Azərbaycan Respublikasının Dövlət Qulluğunu İdarəetmə Şurasının qərarı ilə

**105. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən dövlət qulluqçusunun attestasiyasının nəticələri əsasında attestasiya komissiyası aşağıdakı qiymətlərdən hansını verə bilər?**

1. tutduğu vəzifəyə uyğun gəlir
2. işini yaxşılaşdırsa və komissiyanın tövsiyələrini yerinə yetirsə, tutduğu vəzifəyə uyğun gəlir
3. işini yaxşılaşdırsa və komissiyanın tövsiyələrini yerinə yetirsə, bir ildən sonra təkrar attestasiyadan keçmək şərti ilə tutduğu vəzifəyə uyğun gəlir
4. tutduğu vəzifəyə qismən uyğun gəlir
5. tutduğu vəzifəyə uyğun gəlmir

A) 1, 4, 5
B) 1, 3, 5
C) 1, 2, 5
D) 3, 4, 5

**106. "Azərbaycan Respublikasının Dövlət bayrağı haqqında Əsasnamə" hansı normativ hüquqi aktla təsdiq olunub?**

A) Qanunla
B) qərarla
C) fərmanla
D) sərəncamla

**107. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən dövlət qulluqçusunun əsas vəzifələrinə aid *deyil:***

A) qulluq keçdiyi orqanın rəhbərinə hər il öz xərcləri haqqında maliyyə hesabatı verməli
B) vətəndaşların, müəssisə, idarə və təşkilatların müraciətlərinə vaxtında baxmalı
C) dövlət orqanında müəyyən edilmiş qulluq reqlamentinə riayət etməli
D) öz ixtisası hüdudunda rəhbərin göstərişi ilə əlavə iş görməli

**108. Azərbaycan Respublikasının Konstitusiyasına əsasən Azərbaycan Respublikası Milli Məclisinin deputatlığından çıxanların yerinə seçkilər nə zaman *keçirilmir*?**

A) Azərbaycan Respublikası Milli Məclisinin səlahiyyət müddətinin bitməsinə 60 gündən az müddət qalarsa
B) Azərbaycan Respublikası Milli Məclisinin səlahiyyət müddətinin bitməsinə 90 gündən az müddət qalarsa
C) Azərbaycan Respublikası Milli Məclisinin səlahiyyət müddətinin bitməsinə 30 gündən az müddət qalarsa
D) Azərbaycan Respublikası Milli Məclisinin səlahiyyət müddətinin bitməsinə 120 gündən az müddət qalarsa

**109. "Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən düzgün *deyil:***

A) Cinayət tərkibi yaratmayan korrupsiya hüquqpozması törətmiş hüquqi şəxslər qanunla müəyyən edilmiş qaydada cərimə edilirlər.
B) Bütün dövlət orqanları və vəzifəli şəxslər səlahiyyətləri çərçivəsində korrupsiya qarşı mübarizəni həyata keçirirlər.
C) Vəzifəli şəxsin statusundan, təmsil etdiyi orqanın statusundan, vəzifə səlahiyyətlərindən irəli gələn imkanlardan istifadə etməklə, şəxsi maraqlarına aid məsələlərin həllinə təsir etməsi bilavasitə korrupsiya hüquqpozmasıdır.
D) Korrupsiya ilə əlaqədar hüquqpozmalar bilavasitə korrupsiya hüquqpozmalarından və korrupsiyaya şərait yaradan hüquqpozmalardan ibarətdir.

**110. “Azərbaycan Respublikasının Dövlət gerbi haqqında Əsasnamə”ni qəbul edib:**
A) Azərbaycan Respublikasının Nazirlər Kabineti
B) Azərbaycan Respublikasının Milli Məclisi
C) Azərbaycan Respublikasının Prezidenti
D) Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi

**111. “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən dövlət qulluqçusu üçün hakimiyyət səlahiyyətinin icrasına görə əlavə haqq təyin edilməsi qaydası hansı normativ hüquqi aktla müəyyən edilir?**
A) Azərbaycan Respublikasının Prezidentinin sərəncamı ilə
B) Azərbaycan Respublikasının Nazirlər Kabinetinin qərarı ilə
C) Azərbaycan Respublikasının Prezidentinin fərmanı ilə
D) Qanunla

**112. “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən barələrində intizam tənbehi tətbiq edilmiş dövlət qulluqçuları hansı müddət ərzində müsahibə və müsabiqəyə *buraxılmırlar?***
A) iki il
B) altı ay
C) bir il altı ay
D) bir il

**113. “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən “?” işarəsinin yerinə uyğun gələn variantı tapın:**
inzibati vəzifələrin
II təsnifatı
2-ci dərəcə dövlət müşaviri
3-cü dərəcə dövlət müşaviri
?

A) 1-ci dərəcə dövlət müşaviri
B) dövlət qulluğunun müşaviri
C) dövlət qulluğunun baş müşaviri
D) dövlət qulluğunun kiçik müşaviri

**114. “Azərbaycan Respublikasında dövlət dili haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən aşağıda göstərilən sənədlərdən hansı dövlət dili ilə yanaşı xarici dillərdə də tərtib edilə bilər?**
A) təhsil haqqında sənəd
B) nikah haqqında şəhadətnamə
C) hərbi bilet
D) əmək kitabçası

**115. Azərbaycan Respublikasının Konstitusiyasına əsasən təbii ehtiyatlar məxsusdur:**
A) ölkədə yaşayan hər bir şəxsə
B) Azərbaycan xalqına
C) Azərbaycan Respublikasına
D) Azərbaycan vətəndaşlarına

**116. Azərbaycan Respubikasının Konstitusiyasına əsasən Azərbaycan Respublikasının Prezidenti:**
A) vətəndaşlıq məsələlərini həll edir
B) inzibati ərazi bölgüsünü müəyyən edir
C) amnistiya məsələsini həll edir
D) məhkəmə quruluşunu və hakimlərin statusunu müəyyən edir

**117. “Dövlət qulluqçularının etik davranış qaydaları haqqında” Azərbaycan Respublikasının Qanununun məqsədlərinə aid *deyil:***
A) dövlət orqanları və dövlət qulluqçularının fəaliyyətində səmərəliliyin və şəffaflığın artırılması
B) dövlət qulluqçularından gözlənilən davranış barədə vətəndaşların məlumatlandırılması
C) dövlət qulluğu sahəsində dövlətlə dövlət qulluqçuları arasında yaranan münasibətlərin tənzimlənməsi
D) dövlət orqanlarının və dövlət qulluğunun nüfuzunun artırılması

**118. “Vətəndaşların müraciətlərinə baxılması qaydası haqqında” Azərbaycan Respublikası Qanununa əsasən müraciətlərlə bağlı kargüzarlığın aparılması qaydasına aid *deyil:***
A) Vətəndaşların tələbi ilə yazılı müraciətin qeydə alınma nömrəsi və tarixi ona bildirilir.
B) Sənədlərə daxil olma tarixini və nömrəsini göstərən ştamp vurulur.
C) Dövlət hakimiyyəti orqanları müraciətlərin qəbul edilməsi və cavablandırılması işini elektron formada həyata keçirə bilməz.
D) Vətəndaşların təklif, ərizə və şikayətləri mütləq kargüzarlıqda qeydiyyatdan keçirilir.

**119. “Məlumat azadlığı haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən açıq məlumatın əldə edilməsi ilə bağlı düzgün *deyil:***
A) Məlumatın verilməsi barədə müqavilə mülki qanunvericiliyə uyğun bağlanır.
B) Dövlət hakimiyyəti orqanları, bələdiyyələr müqavilənin olmamasına görə məlumatı verməkdən imtina edə bilməzlər.
C) İnternet informasiya ehtiyatları açıq məlumatın əldə edilməsi yollarından biridir.
D) Açıq məlumatın alınması qaydası və şərtləri yalnız “Məlumat azadlığı haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müəyyən olunur.

**120. “Korrupsiyaya qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən vəzifəli şəxslərin təqdim etməli olduğu məlumatlara *aid deyil:***

A) mənbəyini, növünü və məbləğini göstərməklə hər il öz gəlirləri barədə
B) şərti maliyyə vahidinin min misli miqdarından yuxarı olan borcu barədə
C) kredit təşkilatlarındakı əmanətləri, qiymətli kağızları barədə
D) vergitutma obyekti olan əmlakı barədə

**121. “Dövlət orqanlarında dövlət qulluğuna müsabiqə vasitəsilə qəbul Qaydaları”na əsasən müsabiqədə iştirak etmək istəyənlər müraciət edə bilərlər:**

A) müsabiqə elan edilən gündən etibarən 15 gün ərzində
B) müsabiqə elan edilən gündən etibarən 10 gün ərzində
C) müsabiqə elan edilən gündən etibarən 30 gün ərzində
D) müvafiq dövlət orqanı vakant olan vəzifələr barədə müvafiq icra hakimiyyəti orqanına məlumat verdikdən sonra 1 ay ərzində

**122. Azərbaycan Respublikasının Konstitusiyasına əsasən dini mərasimlərin yerinə yetirilməsinə yol *verilmir:***

1. ictimai qaydanı pozduqda
2. qeyri-islam dinlərinə aid olduqda
3. ictimai əxlaqa zidd olduqda
4. kütləvi şəkildə həyata keçirildikdə

A) 1, 3
B) 2, 3
C) 1, 4
D) 2, 4

**123. Bələdiyyələrin statusunun əsasları müəyyən edilir:**

A) Azərbaycan Respublikasının Milli Məclisinin qərarı ilə
B) Azərbaycan Respublikasının Konstitusiyası ilə
C) Azərbaycan Respublikasının Prezidentinin Fərmanı ilə
D) Azərbaycan Respublikasının Nazirlər Kabinetinin qərarı ilə

**124. Azərbaycan Respublikasının Konstitusiyasına əsasən vəzifəyə seçilmə və ya təyinat yolu ilə qanunvericilik, icra və ya məhkəmə hakimiyyəti orqanlarında işləyən, Konstitusiyaya sadiq qalacağına and içmiş şəxs hansı halda vəzifədən getmiş sayılır və bir daha bu vəzifəni tuta *bilməz?***

A) dövlətə qarşı cinayət ittihamı əsasında məhkum olunubsa
B) məhkəmənin qərarı ilə həmin şəxsin fəaliyyət qabiliyyətsizliyi təsdiq olunubsa
C) xüsusilə ağır cinayətin törədilməsində məhkum olunubsa
D) Azərbaycan Respublikasının vətəndaşlığından çıxıbsa

**125. "Dövlət hakimiyyəti orqanlarında, idarə, təşkilat və müəssisələrində kargüzarlığın aparılmasına dair Təlimat"a əsasən sənəd hansı üsullarla təsdiq olunur?**

1. imzalanmaqla
2. təsdiqetmə qrifi ilə
3. möhür vurmaqla
4. dərc edilməklə
5. müvafiq sərəncam mahiyyətli sənəd qəbul etməklə

A) 1, 2
B) 1, 5
C) 2, 5
D) 3, 4

**126. “Dövlət hakimiyyəti orqanlarında, idarə, təşkilat və müəssisələrində kargüzarlığın aparılmasına dair Təlimat”a əsasən gətirilən korrespondensiyanın düzgünlüyünü yoxlamaqda məqsəd:**

A) təyinatı üzrə gətirilməyən korrespondensiyani aşkar etməkdir
B) korrespondensiyanı geri qaytarmamaqdır
C) korrespondensiyanı qeydiyyata almaqdır
D) təyinatı üzrə gətirilən korrespondensiyanı aşkar etməkdir

**127. Azərbaycan Respublikasının Konstitusiyanın birinci fəsli adlanır:**

A) Əsas insan və vətəndaş hüquq və azadlıqları
B) Xalq hakimiyyəti
C) Dövlətin əsasları
D) Hakimiyyətin mənbəyi

**128. “Normativ hüquqi aktlar haqqında” Azərbaycan Respublikasının Konstitusiya Qanununa əsasən qeyri-normativ hüquqi aktlara aiddir:**
A) yerli icra hakimiyyəti orqanlarının qərarları
B) Azərbaycan Respublikasının Milli Məclisinin qərarları
C) Azərbaycan Respublikasının Məhkəmə-Hüquq Şurasının qərarları
D) Azərbaycan Respublikasının Mərkəzi Bankının qərarları

**129. “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən Naxçıvan Muxtar Respublikasın Ali Məhkəməsinin aparat rəhbəri vəzifəsi aiddir:**
A) inzibati vəzifələrin beşinci təsnifatına
B) inzibati vəzifələrin üçüncü təsnifatına
C) inzibati vəzifələrin dördüncü təsnifatına
D) inzibati vəzifələrin ikinci təsnifatına

**130. Azərbaycan Respublikasının Konstitusiyasına əsasən Milli Məclis hansı məsələyə dair ümumi qaydalar müəyyən edərkən 63 səs çoxluğu ilə qanunlar qəbul edir?**
A) dövlət qulluğu
B) Milli Məclisə seçkilər və Milli Məclis deputatlarının statusu
C) Azərbaycan Respublikası Prezidentinin seçkiləri
D) referendum

**131. “Vətəndaşların müraciətlərinə baxılması qaydası haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən müəssisənin rəhbəri və ya onun müavini tərəfindən müraciətə baxılma müddətini uzatdıqları müstəsna hallara aid *deyil:***
A) xüsusi yoxlama keçirmək üçün
B) əlavə materiallar tələb etmək üçün
C) fövqəladə halın nəticələrini aradan qaldırmaq üçün
D) başqa tədbirlər görmək üçün

**132. “Dövlət qulluqçularının etik davranış qaydaları haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən dövlət qulluqçusu başqa vəzifəyə keçmə ilə əlaqədar təkliflərin maraqların toqquşmasına səbəb ola biləcəyi hallarda:**
A) bu barədə dövlət orqanının rəhbərinə məlumat verməlidir
B) bu maraqların toqquşmasının qarşısını şəxsi təşəbbüsü ilə almalıdır
C) bu barədə birbaşa rəhbəri ilə məsləhətləşməlidir
D) bu məsələdə şəxsi maraqlardan imtina etməlidir

**133. “Dövlət qulluqçularının etik davranış qaydaları haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən etik davranış qaydalarına aşağıdakılardan hansı aid *deyil?***
A) əmlakdan istifadə
B) elmi və yaradıcılıq fəaliyyəti
C) məlumatlardan istifadə
D) ictimai və ya siyasi fəaliyyət

**134. Azərbaycan Respublikasının Konstitusiyasına əsasən Azərbaycan Respublikası Milli Məclisinin deputatı hansı halda mandatından məhrum *edilmir:***
A) cinayət törətdikdə və məhkəmənin qanuni qüvvəyə minmiş hökmü olduqda
B) seçkilər zamanı səslərin düzgün hesablanmadığı aşkar olunduqda
C) başqa dövlətin vətəndaşlığını qəbul etdikdə
D) elmi, pedaqoji və yaradıcılıq fəaliyyəti ilə məşğul olduqda

**135. “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən 1-ci kateqoriya dövlət orqanıdır:**
A) Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti
B) Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi
C) Azərbaycan Respublikasının Ali Məhkəməsi
D) Naxçıvan Muxtar Respublikasının Ali Məclisi

**136. “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən müsahibədə nəzərə alınır:**
1. ixtisas dərəcəsi
2. attestasiyanın nəticələri
3. qiymətləndirmənin nəticələri
4. iş stajı
A) 2, 4
B) 2, 3
C) 1, 2
D) 1, 3

**137. “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən yardımçı vəzifələrin ikinci təsnifatına aiddir:**
A) 1-ci kateqoriya dövlət orqanlarında texniki vəzifələr
B) 4-cü kateqoriya dövlət orqanlarında texniki vəzifələr
C) 5-ci kateqoriya dövlət orqanlarında texniki vəzifələr
D) 3-cü kateqoriya dövlət orqanlarında texniki vəzifələr

**138. Azərbaycan Respublikasının Konstitusiyasına əsasən ailə qurmaq hüququndan istifadə edə *bilməz:***
A) cəza çəkmə müəssisəsində cəza çəkənlər
B) ailənin saxlanılması üçün təminatı olmayanlar
C) Azərbaycan vətəndaşı olmayanlar
D) qanun ilə müəyyən edilmiş yaş həddinə çatmayanlar

**139. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən dövlət qulluğu ilə zidd *deyil:***
A) dövlət qulluqçusunun işlədiyi dövlət orqanı rəhbərinə bildirmədən xarici ölkənin vəsaiti hesabına oraya getməsi
B) dövlət qulluqçusunun işlədiyi dövlət orqanı rəhbərinin icazəsi olmadan pedaqoji fəaliyyətlə məşğul olması
C) dövlət qulluqçusunun qulluq vəzifələrini icra etdiyi dövrdə əmanətlərdən, qiymətli kağızlardan, rentadan və icarədən gəlir götürməsi
D) dövlət qulluqçusunun qulluq vəzifələrini icra etdiyi dövrdə siyasi partiyaların fəaliyyətində iştirak etməsi

**140. Azərbaycan Respublikasının Konstitusiyasına əsasən dövlət təminat verir:**
A) inhisarçılığa
B) sərvətlərin bərabər bölgüsünə
C) azad sahibkarlığa
D) iqtisadi inkişafa

**141. Azərbaycan Respublikasının Konstitusiyasına əsasən müddəalardan biri düzgün *deyil:***
A) Hər kəsin üzərinə vəzifələr yalnız bu Konstitusiya ilə və ya qanunla qoyula bilər.
B) Dövlət və cəmiyyət qarşısında hər bir şəxs onun hüquq və azadlıqlarından bilavasitə irəli gələn vəzifələr daşıyır.
C) Qanunvericiliklə müəyyən edilmiş hallarda qanunu bilməmək məsuliyyətdən azad edə bilər.
D) Hər bir şəxs başqa şəxslərin hüquq və azadlıqlarına hörmət bəsləməli, qanunla müəyyən edilmiş digər vəzifələri yerinə yetirməlidir.

**142. "Vətəndaşların müraciətlərinə baxılması qaydası haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən hərbi qulluqçuların və onların ailə üzvlərinin müraciəti daxil olduğu gündən etibarən neçə gün ərzində baxılır?**
A) ən geci 20 gün
B) ən geci 30 gün
C) ən geci 15 gün
D) ən geci 7 gün

**143. "Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən vəzifəli şəxslər aşağıdakı məlumatları təqdim etməlidirlər:**
A) şərti maliyyə vahidinin beş min misli miqdarından yuxarı olan borcu barədə
B) şərti maliyyə vahidinin min misli miqdarından yuxarı olan borcu barədə
C) şərti maliyyə vahidinin iki min misli miqdarından yuxarı olan borcu barədə
D) şərti maliyyə vahidinin altı min misli miqdarından yuxarı olan borcu barədə

**144. Azərbaycan Respublikasının Konstitusiyasına əsasən Azərbaycan xalqının suveren hüququdur:**
1. suveren dövlətdə yaşamaq
2. sərbəst və müstəqil öz müqəddəratını həll etmək
3. dövlət büdcəsinə nəzarət etmək
4. öz idarəetmə formasını müəyyən etmək
5. sağlam ətraf mühitdə yaşamaq
A) 2, 4
B) 3, 5
C) 4, 5
D) 1, 2

**145. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən dövlət qulluğuna hansı əsaslarla xitam verilə *bilməz?***
A) dövlət qulluqçularının sayı və ya ştatları ixtisar edildikdə
B) dövlət qulluğunda olmanın yaş həddinə çatdıqda
C) dövlət qulluqçusunun öz arzusu ilə
D) dövlət orqanının statusu dəyişdikdə

**146. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən dövlət qulluqçusu barəsində tətbiq edilə bilən intizam tənbeh tədbirlərinə aid *deyil:***
A) altı ay müddətində vəzifə maaşının 10 faiz azaldılması
B) daha aşağı təsnifatdan olan vəzifəyə keçirilməsi
C) ixtisas dərəcəsindən məhrum edilmə
D) vəzifə maaşı aşağı olan vəzifəyə keçirilməsi

**147. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən dövlət qulluqçusunun əlavə təhsilinin növü, forması, müddəti və maliyyə təminatı qaydaları tənzimlənir:**
A) Azərbaycan Respublikasının Prezidenti tərəfindən
B) Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən
C) Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən
D) Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən

**148. "Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən korrupsiya ilə əlaqədar hüquqpozmalar nəticəsində qəbul olunmuş aktlar hansı orqan tərəfindən ləğv edilə bilər?**

A) Azərbaycan Respublikasının Korrupsiyaya Qarşı Mübarizə üzrə Komissiyası
B) Azərbaycan Respublikasının Dövlət Qulluğunu İdarəetmə Şurası
C) məhkəmə
D) Baş prokurorluq

**149. "Azərbaycan Respublikasında dövlət dili haqqında" Azərbaycan Respublikasının Qanununun dövlət dilinin televiziya və radio yayımlarında işlənməsi müddəaları ilə bağlı düzgündür:**

A) Televiziya və radio kanallarında dublyaj olunan filmlər və verilişlər dövlətin müəyyən etdiyi dil normalarına uyğun olmalıdır.
B) Azərbaycan Respublikası fəaliyyət göstərən və dövlət dilində yayımlanan bütün televiziya və radio kanallarının işçiləri səlis danışıq qabiliyyətinə malik olmalıdırlar.
C) Azərbaycan Respublikası ərazisində bütün xidmət sahələrində, reklam və elanlarda dövlət dili işlənilir.
D) Yalnız Azərbaycan Respublikası ərazisində təsis edilən bütün televiziya və radio kanallarının aparıcıları dövlət dilini mükəmməl bilməlidirlər.

**150. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanunu tənzimləmir:**

A) dövlət qulluqçularının hüquqi vəziyyəti ilə bağlı məsələləri
B) dövlətlə dövlət qulluqçuları arasında yaranan münasibətləri
C) dövlət orqanlarında sənədlərin rəsmiləşdirilməsi məsələsini
D) dövlət orqanlarının təsnifləşdirilməsi məsələsini

**151. Azərbaycan Respublikasının Konstitusiyasına əsasən ümumi qaydalar müəyyən etdikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti qəbul edir:**

A) fərmanlar
B) sərəncamlar
C) qanunlar
D) qərarlar

**152. Azərbaycan Respublikasının Konstitusiyasına əsasən səlahiyyətlərinə aid edilmiş işlər üzrə yuxarı instansiya məhkəməsidir:**

A) Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi
B) apellyasiya məhkəməsi
C) Azərbaycan Respublikasının Ali Məhkəməsi
D) ağır cinayətlərə dair işlər üzrə məhkəmə

**153. "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununa əsasən "lokal normativ hüquqi akt"ın anlayışı düzgün verilmişdir:**

A) dövlət və ya yerli özünüidarə orqanı tərəfindən qəbul edilmiş və yerli hüquq münasibətlərini tənzimləyən normativ hüquqi aktdır
B) qüvvəsi bir və ya bir neçə dövlət orqanının çərçivəsi ilə məhdudlaşan normativ hüquqi aktdır
C) qüvvəsi yalnız bir dövlət orqanının çərçivəsi ilə məhdudlaşan normativ hüquqi aktdır
D) hüquqi qüvvəsi konkret ərazi ilə məhdudlaşan normativ hüquqi aktdır

**154. "Məlumat azadlığı haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən məlumat azadlığının həyata keçirilməsi kimlərin mənafelərinin pozulmasına səbəb *olmamalıdır?***

A) yalnız fiziki şəxslərin
B) yalnız hüquqi şəxslərin
C) dövlət orqanlarının
D) fiziki və hüquqi şəxslərin

**155. "Vətəndaşların müraciətlərinə baxılması qaydası haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən müraciət etmək hüququ ilə bağlı düzgün variantı tapın:**

A) Azərbaycan Respublikası vətəndaşları dövlət orqanlarına yalnız kollektiv qaydada yazılı müraciət edə bilərlər
B) Azərbaycan Respublikası vətəndaşları dövlət orqanlarına yalnız elektron formada müraciət edə bilərlər
C) Azərbaycan Respublikası vətəndaşları dövlət orqanlarına yalnız fərdi və kollektiv yazılı müraciət edə bilərlər.
D) Azərbaycan Respublikası vətəndaşları dövlət orqanlarına yalnız fərdi qaydada yazılı müraciət edə bilərlər

**156. "Dövlət hakimiyyəti orqanlarında, idarə, təşkilat və müəssisələrində kargüzarlığın aparılmasına dair Təlimat"a əsasən telefonoqram verilərkən *göstərilmir:***

A) telefonoqramın kimin ünvanına verildiyi
B) telefonoqramın verildiyi tarix və saat
C) telefonoqramı imzalamış şəxsin vəzifəsi və soyadı
D) telefonoqramı ötürənin soyadı və telefon nömrəsi

**157. “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən iş vaxtı ay ərzində neçə saatdan çox artırıldıqda işlədiyi hər saata görə dövlət quluqçusuna əlavə haqq ödənilməlidir?**
A) 7 saatdan çox
B) 5 saatdan çox
C) 4 saatdan çox
D) 6 saatdan çox

**158. “Azərbaycan Respublikasının Dövlət bayrağı haqqında Əsasnamə” qəbul edilib:**
A) Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən
B) Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi tərəfindən
C) Azərbaycan Respublikasının Ali Soveti tərəfindən
D) Azərbaycan Respublikasının Prezidenti tərəfindən

**159. “Azərbaycan Respublikasının Əmək Məcəlləsi”nə əsasən əmək müqaviləsinin ləğv olunması qadağan edilən işçilərə aiddir:**
A) qaçqın və məcburi köçkünlər
B) əmək qabiliyyətini müvəqqəti itirən işçilər
C) siyasi partiyaların üzvləri
D) pensiya yaşına bir il qalan işçilər

**160. “Azərbaycan Respublikasının Dövlət himni haqqında Əsasnamə”yə əsasən bütün hallarda Azərbaycan Respublikasının Dövlət himni necə ifa olunmalıdır?**
A) tam
B) orkestrin müşayəti ilə
C) musiqili
D) təntənəli

**161. Azərbaycan Respublikasının Konstitusiyasına əsasən əleyhinə ifadə verilməsi məcburi olmayan qohumların tam siyahısı müəyyən edilir:**
A) qanunla
B) Azərbaycan Respublikasının Prezidentinin fərmanı ilə
C) Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinin qərarı ilə
D) Azərbaycan Respublikasının Nazirlər Kabinetinin qərarı ilə

**162. “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən “?” işarəsinin yerinə uyğun gələn variantı tapın:**

yardımçı vəzifələrin I təsnifatı
dövlət qulluğunun baş referenti
dövlət quluğunun böyük referenti
?

A) dövlət qulluğunun 1-ci dərəcə referenti
B) dövlət qulluğunun 2-ci dərəcə referenti
C) dövlət qulluğunun kiçik referenti
D) dövlət qulluğunun 3-cü dərəcə referenti

**163. “Dövlət qulluqçularının etik davranış qaydaları haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən etik davranış qaydalarına əməl olunmasına dövlət orqanının rəhbəri tərəfindən nəzarətin həyata keçirilməsinə aiddir:**
1. Dövlət qulluqçularının etik davranış məsələləri ilə bağlı qanunvericiliyin təkmilləşdirilməsinə dair təkliflər verməlidir.
2. Bu Qanunla müəyyən edilmiş etik davranış qaydalarına əməl edilməsi vəziyyətini öyrənməli və bu barədə məlumatları ümumiləşdirməlidir.
3. Tabeliyində olan şəxsləri hüquqa və hamılıqla qəbul edilmiş etik normalara zidd olan hərəkət etməyə və qərarlar qəbul etməyə sövq etməməlidir.
4. Rəhbərlik etdiyi dövlət orqanlarına və onların struktur bölmələrinə kadrların seçilməsi və yerləşdirilməsi zamanı qanunvericiliyin tələblərinə əməl etməlidir.
5. Tabeliyində olan dövlət qulluqçularına etik davranış qaydalarını izah etməli və müraciət olunduğu təqdirdə etik davranış qaydalarına əməl olunmasına dair onlara tövsiyələr verməlidir.
6. Dövlət qulluqçularının etik davranış məsələləri üzrə araşdırmalar aparmalı, bu məsələlərlə bağlı tövsiyələr və məruzələr tərtib etməlidir.

A) 1, 4, 6
B) 3, 4, 5
C) 2, 5, 6
D) 1, 3, 5

**164. Azərbaycan Respublikasının Konstitusiyasına əsasən Milli Məclisin səlahiyyətlərinə aid deyil:**
A) Azərbaycan Respublikasının Baş prokurorunun vəzifəyə təyin və vəzifədən azad edilməsinə razılıq verilməsi
B) Azərbaycan Respublikası Mərkəzi Bankı İdarə Heyəti üzvlərinin vəzifəyə təyin və vəzifədən azad edilməsi
C) fövqəladə və hərbi vəziyyət elan edilməsi
D) müharibə elan edilməsinə və sülh bağlanmasına razılıq verilməsi

**165. “Dövlət hakimiyyəti orqanlarında, idarə, təşkilat və müəssisələrində kargüzarlığın aparılmasına dair Təlimat”a əsasən sənədlərin hansı nüsxələri imzalanmalıdır?**
A) ilk iki nüsxəsi
B) bütün nüsxələri
C) bir nüsxəsi
D) sonuncu nüsxəsi

**166. “Dövlət qulluqçularının etik davranış qaydaları haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən dövlət qulluqçusunun “xidməti davranışı” dedikdə nəzərdə tutulur:**

A) dövlət qulluqçusunun vətəndaşların dövlət orqanlarına və dövlət qulluqçularına etimadının yüksəldilməsi naminə səylə çalışması
B) dövlət qulluqçusunun qanunvericiliklə ona verilmiş hüquqların həyata keçirilməsi və vəzifələrinin yerinə yetirilməsi ilə əlaqədar fəaliyyəti
C) dövlət qulluqçularının qanunvericiliklə nəzərdə tutulmuş etik davranış qaydalarına əməl etməsi
D) dövlət qulluqçusunun qanunvericiliklə müəyyən olunmuş bütün qaydalara əməl etməsi

**167. Azərbaycan Respublikasının Konstitusiyasına əsasən Naxçıvan Muxtar Respublikasının Ali Məclisi həll etdiyi məsələlərə dair qəbul edir:**

A) sərəncamlar
B) qanunlar
C) qərarlar
D) fərmanlar

**168. “Dövlət orqanlarında dövlət qulluqçusuna dövlət qulluğunda qulluq stajına görə əlavə haqqın məbləğlərinin müəyyənləşdirilməsi Qaydaları”na əsasən dövlət qulluğunda qulluq stajının müddəti 1 ildən 5 ilədək olduqda aylıq vəzifə maaşının neçə faizi miqdarında əlavə haqq verilir?**

A) 10
B) 20
C) 3
D) 5

**169. “Dövlət qulluqçularının etik davranış qaydaları haqqında” Azərbaycan Respublikası Qanununda təminatlar sistemi ilə bağlı təsbit olunmuş müddəada nəzərdə tutulmamışdır?**

A) Dövlət qulluqçusunun davranışının etik davranış qaydalarına uyğunluğu onun birbaşa və ya yuxarı rəhbəri tərəfindən müntəzəm təhlil edilir.
B) Dövlət qulluqçusu, onun birbaşa və ya yuxarı rəhbəri tərəfindən bu fəsildə nəzərdə tutulmuş tədbirlər görülür.
C) Dövlət qulluqçusunun yuxarı orqanı tərəfindən müvafiq tədbirlər görülür.
D) Dövlət qulluqçusunun davranışının etik davranış qaydalarına uyğunluğu onun özü tərəfindən müntəzəm təhlil edilir.

**170. “Korrupsiyaya qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən vəzifəli şəxsin statusundan, təmsil etdiyi orqanın statusundan, vəzifə səlahiyyətlərindən və ya həmin status və səlahiyyətlərdən irəli gələn imkanlardan istifadə etməklə, şəxsi maraqlarına aid məsələlərin həllinə təsir etməsi:**

A) (bilavasitə) korrupsiya hüquqpozmasıdır
B) korrupsiyaya şərait yaradan hüquqpozma deyil
C) korrupsiya ilə əlaqədar hüquqpozma deyil
D) korrupsiya ilə əlaqədar hüquqpozmadır

**171. “Azərbaycan Respublikası Dövlət bayrağının istifadəsi qaydaları haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən Dövlət bayrağının təsvirinin istifadəsinə aid *deyil:***

A) Beynəlxalq uçuşları həyata keçirən Azərbaycan Respublikasının mülki hava gəmilərinin üzərində vurulur.
B) Azərbaycan Respublikası Dövlət Sərhəd Xidməti sərhəd gəmilərinin və qayıqlarının fərqləndirici nişanı kimi istifadə olunur.
C) Azərbaycan Respublikasının Milli Məclisinin rəsmi blanklarından istifadə edilir.
D) Azərbaycan Respublikasının hüdudlarından kənara uçuşlar üçün istifadə olunan hərbi nəqliyyat hava gəmilərinin üzərində vurulur.

**172. “Məlumat azadlığı haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən müqavilənin olmamasına görə məlumatı verməkdən kimlər imtina edə *bilməzlər?***

A) fiziki və hüquqi şəxslər
B) yalnız hüquqi şəxslər
C) beynəlxalq təşkilatlar
D) dövlət hakimiyyəti orqanları və bələdiyyələr

**173. “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən attestasiya komissiyası attestasiyanın nəticələri əsasında dövlət qulluqçularına qarşı hansı tədbirlər görür:**

1. irəli çəkilmək üçün ehtiyat kadrlar siyahısına daxil edilməsi haqqında tövsiyyə verir
2. tutduğu vəzifədən azad edilməsi barədə tövsiyə verir
3. dövlət qulluqçusunu qazandığı müvəffəqiyyətlərə görə mükafatlandırır
4. attestasiyadan keçən şəxslərin əlavə peşə təhsili keçməsi barədə tövsiyyə verir
5. dövlət qulluqçusunu aşağı vəzifəyə keçirir

A) 1, 2, 5
B) 2, 3, 4
C) 3, 4, 5
D) 1, 2, 4

**174. “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən aşağıdakı şərtlərin hansından asılı olmayaraq şəxsin dövlət qulluğuna qəbul edilmək hüququ vardır?**
1. təhsilindən
2. sosial mənşəyindən
3. yaşayış yerindən
4. ictimai və digər birliklərə mənsubiyyətindən
5. yaşından
6. əmlak vəziyyətindən
A) 2, 4, 5, 6
B) 1, 2, 5, 6
C) 1, 3, 5, 6
D) 2, 3, 4, 6

**175. “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən Dövlət Qulluğunu İdarəetmə Şurasının hüquqi statusu ilə bağlı göstərilənlərdən hansı düzgündür?**
A) ali kateqoriyalı dövlət orqanıdır
B) dövlət orqanıdır, lakin ictimai əsaslarla fəaliyyət göstərir
C) dövlət orqanıdır
D) dövlət orqanı deyil

**176. Azərbaycan Respublikasının Konstitusiyasına əsasən seçki hüquqları məhdudlaşdırıla *bilməz:***
A) azadlıqdan məhrum edilmiş şəxslərin
B) hakimlərin
C) dövlət məmurlarının
D) hərbi qulluqçuların

**177. “Azərbaycan Respublikasında dövlət dili haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən inzibati ərazi vahidlərinin adları dövlət dili ilə yanaşı xarici dillərdə də yazıldığı hallarda inzibati ərazi vahidinin adı hansı qaydada yazılır?**
A) həm xarici dildə, həm də dövlət dilində şaquli şəkildə eyni sırada verilməlidir
B) əvvəlcə dövlət dilində və ondan sonra xarici dildə verilməlidir
C) əvvəlcə xarici dildə və ondan sonra dövlət dilində verilməlidir
D) dövlət dilində şaquli şəkildə xarici dildə isə üfuqi şəkildə verilməlidir

**178. “Dövlət hakimiyyəti orqanlarında, idarə, təşkilat və müəssisələrində kargüzarlığın aparılmasına dair Təlimat”a əsasən sənədlərin səhifələri hansı qaydada nömrələnməlidir?**
A) Rəsmi sənədlərin səhifələrinin nömrələnməsinə yol verilmir.
B) İyirmi və daha çox səhifəsi olan sənədlər ərəb rəqəmləri ilə, digər sənədlər isə birinci səhifədən başlayaraq ərəb və ya rum rəqəmləri ilə nömrələnməlidir.
C) On və daha artıq səhifəsi olan sənədlər ikinci səhifədən başlayaraq rum rəqəmləri ilə nömrələnməlidir.
D) İki və daha artıq səhifəsi olan sənədlər ikinci səhifədən başlayaraq ərəb rəqəmləri ilə nömrələnməlidir.

**179. “Normativ hüquqi aktlar haqqında” Azərbaycan Respublikasının Konstitusiya Qanununa əsasən normativ hüquqi aktlara aid *deyil:***
A) Konstitusiya
B) Nazirlər Kabinetinin sərəncamları
C) Nazirlər Kabinetinin qərarları
D) Prezidentin fərmanları

**180. Azərbaycan Respublikasının Konstitusiyasına əsasən Konstitusiyaya əlavələr Milli Məclisdə qəbul edilir:**
A) 83 səs çoxluğu ilə
B) 63 səs çoxluğu ilə
C) 95 səs çoxluğu ilə
D) sadə səs çoxluğu ilə

**181. Azərbaycan Respublikasının Konstitusiyasına əsasən cinayətlərin törədilməsinə görə məsuliyyətin təyin edilməsinə dair ümumi qaydaları müəyyən edir:**
A) Milli Məclis
B) Nazirlər Kabineti
C) Prezident
D) Ali Məhkəmə

**182. Azərbaycan Respublikasının Konstitusiyasına əsasən insan və vətəndaş hüquqlarının və azadlıqlarının pozulması ilə əlaqədar mübahisələri həll edir:**
A) Milli Məclis
B) Ombudsman
C) məhkəmələr
D) Ədliyyə Nazirliyi

**183. “Korrupsiyaya qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən bu Qanunun məqsədi üçün vəzifəli şəxs hesab *edilmir:***
A) Azərbaycan Respublikasının dövlət orqanlarında seçkili vəzifələrə namizədliyi qanunla müəyyən olunmuş qaydada qeydə alınmış şəxslər
B) dövlət orqanlarında müvafiq struktur vahidlərində, dövlət idarə, müəssisə və təşkilatlarında, habelə dövlətin nəzarət səhm zərfinə sahib olduğu təsərrüfat subyeklərində təşkilati-sərəncamverici və ya inzibati-təsərrüfat funksiyalarını həyata keçirən şəxslər
C) yerli özünüidarəetmə orqanlarında təşkilati-sərəncamverici və ya inzibati-təsərrüfat funksiyalarını həyata keçirən şəxslər

D) öz nüfuzundan və ya əlaqələrindən istifadə edərək vəzifəli şəxsin qərarına qanunsuz təsir göstərmək müqabilində maddi və sair nemətlər, imtiyazlar və güzəştlər əldə edən şəxslər

**184. "Vətəndaşların müraciətlərinə baxılması qaydası haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən dövlət hakimiyyəti orqanlarında korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı müraciətlərə baxılması xüsusiyyətləri hansı cavabda düzgün verilmişdir?**

A) Müraciət daxil olduqda, aidiyyəti struktur bölmənin rəhbəri tərəfindən xidməti araşdırma təyin edilir, xidməti araşdırma 20 gün müddətinə başa çatdırılmalıdır.
B) Müraciət daxil olduqda, dövlət hakimiyyəti orqanının rəhbəri tərəfindən xidməti araşdırma təyin edilir, xidməti araşdırma 20 gün müddətinə başa çatdırılmalıdır.
C) Müraciət daxil olduqda, dövlət hakimiyyəti orqanının rəhbəri tərəfindən araşdırma aparılır, xidməti araşdırma 20 gün müddətinə başa çatdırılmalıdır və əlavə materiallar tələb olunarsa bu müddət daha 20 gün artırıla bilər.
D) Müraciət daxil olduqda, dövlət hakimiyyəti orqanının rəhbəri tərəfindən araşdırma aparılır, xidməti araşdırma 30 gün müddətinə başa çatdırılmalıdır və əlavə materiallar tələb olunarsa bu müddət daha 20 gün artırıla bilər.

**185. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən göstərilən ixtisas dərəcələrindən hansı yardımçı vəzifələrin ikinci təsnifatına aid *deyil?***

A) dövlət qulluğunun baş referenti
B) dövlət qulluğunun 1-ci dərəcə referenti
C) dövlət qulluğunun böyük referenti
D) dövlət qulluğunun 2-ci dərəcə referenti

**186. Azərbaycan Respublikasının Konstitusiyasına əsasən Prezident seçilmiş şəxs and içir:**

A) Təhlükəsizlik Şurası üzvlərinin iştirakı ilə
B) Nazirlər Kabineti üzvlərinin iştirakı ilə
C) Milli Məclis deputatlarının iştirakı ilə
D) Konstitusiya Məhkəməsi hakimlərinin iştirakı ilə

**187. Azərbaycan Respublikasının Konstitusiyasına əsasən yalnız referendumla həll edilə bilən məsələlərdir:**

A) Azərbaycan Respublikasının Konstitusiyasının qəbul edilməsi, Azərbaycan Respublikasının Konstitusiyasına əlavə və dəyişikliklər edilməsi, müharibə elan edilməsi
B) Azərbaycan Respublikasının Konstitusiyasının qəbul edilməsi, Azərbaycan Respublikasının Konstitusiyasına əlavə və dəyişikliklər edilməsi, idarəetmə formasının və dövlət sərhədlərinin dəyişdirilməsi
C) Azərbaycan Respublikasının Konstitusiyasının qəbul edilməsi, Azərbaycan Respublikasının Konstitusiyasına əlavə və dəyişikliklər edilməsi, idarəetmə formasının və dövlət dilinin dəyişdirilməsi
D) Azərbaycan Respublikasının Konstitusiyasının qəbul edilməsi, Azərbaycan Respublikasının Konstitusiyasına dəyişikliklər edilməsi, dövlət sərhədlərinin dəyişdirilməsi

**188. "Dövlət qulluqçularının etik davranış qaydaları haqqında" Azərbaycan Respublikasının Qanununun məqsədlərinə aid *deyil?***

A) dövlət qulluğu sahəsində dövlətlə dövlət qulluqçuları arasında yaranan münasibətlərin tənzimlənməsi
B) dövlət qulluqçularının fəaliyyətində maraqların toqquşmasının qarşısının alınması
C) vətəndaşların dövlət orqanlarına və dövlət qulluqçularına etimadının yüksəldilməsi
D) dövlət orqanları və dövlət qulluqçularının fəaliyyətində səmərəliliyin və şəffaflığın artırılması

**189. Dövlət qulluqçularının etik davranış qaydaları haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən düzgün *deyil:***

A) Dövlət qulluqçusu ictimai və ya siyasi birliyə üzv olmaq hüququna malik deyil.
B) Dövlət qulluqçusunun qanunsuz olaraq maddi və qeyri-maddi nemətlər, imtiyazlar və ya güzəştlər əldə etməyə yönəlmiş hərəkətlər (hərəkətsizlik) etməsi və ya qərarlar qəbul etməsi qadağandır.
C) Dövlət qulluqçusu xidməti fəaliyyəti zamanı əldə etdiyi məlumatları şəxsi maraqları üçün istifadə edə bilməz.
D) Dövlət qulluqçusu qulluq etdiyi dövrdə maraqların toqquşmasına yol verməməlidir .

**190. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən dövlət qulluqçusunun pensiyasının məbləği asılıdır:**

1. dövlət qulluğunda xidmət illərindən
2. dövlət məvacibinin məbləğindən
3. xidməti ezamiyyət müddətində ödənilmiş pul təminatlarından

4. dövlət orqanlarında əlavə ödənişli vəzifə tutma üçün ödənilmiş məvacibdən

A) 1, 3
B) 3, 4
C) 1, 2
D) 2, 4

**191. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən dövlət qulluğu ilə zidd *deyil:***

A) dövlət qulluqçusunun işlədiyi dövlət orqanı rəhbərinin icazəsi olmadan pedaqoji fəaliyyətlə məşğul olması
B) dövlət qulluqçusunun qulluq vəzifələrini icra etdiyi dövrdə siyasi partiyaların fəaliyyətində iştirak etməsi
C) dövlət qulluqçusunun işlədiyi dövlət orqanı rəhbərinə bildirmədən xarici ölkənin vəsaiti hesabına oraya getməsi
D) dövlət qulluqçusunun qulluq vəzifələrini icra etdiyi dövrdə əmanətlərdən, qiymətli kağızlardan, rentadan və icarədən gəlir götürməsi

**192. Azərbaycan Respublikasının Konstitusiyasına əsasən dövlətin ali məqsədi nədir?**

A) bilavasitə və nümayəndəli demokratiya təsisatlarının inkişaf etdirilməsi
B) insan və vətəndaş hüquq və azadlıqlarının, Azərbaycan Respublikasının vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin etdirilməsi
C) hakimiyyət bölgüsü prinsipinin təmin edilməsi
D) dövlətin hüquqi əsaslarla idarə olunmasının təmin edilməsi

**193. Azərbaycan Respublikasının Konstitusiyasına əsasən Azərbaycan Respublikası vətəndaşlarının əsas vəzifələrinə aiddir:**

A) tətil etmək
B) ətraf mühiti qorumaq
C) sərbəst toplaşmaq
D) mədəniyyət təsisatlarından və mədəni sərvətlərdən istifadə etmək

**194. Azərbaycan Respublikasının Konstitusiyasına əsasən Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin həll etdiyi məsələlərə aid *deyil:***

A) Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilər
B) Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə etimad
C) Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti tərkibinin təsdiqi
D) Naxçıvan Muxtar Respublikasının büdcəsinin təsdiqi

**195. "Vətəndaşların müraciətlərinə baxılması qaydası haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən dövlət hakimiyyəti orqanları tərəfindən müraciətlərin qəbul edilməsi və cavablandırılması işinin elektron formada həyata keçirilməsi ilə bağlı düzgündür:**

A) Dövlət hakimiyyəti orqanları müraciətlərin qəbul edilməsi və cavablandırılması işini elektron formada həyata keçirə bilər.
B) Yerli icra hakimiyyəti orqanları istisna olmaqla digər icra hakimiyyəti orqanları müraciətlərin qəbul edilməsi və cavablandırılması işini elektron formada həyata keçirə bilər.
C) Yalnız məhkəmə və qanunvericilik hakimiyyəti orqanları müraciətlərin qəbul edilməsi və cavablandırılması işini elektron formada həyata keçirə bilər.
D) Dövlət hakimiyyəti orqanları müraciətlərin qəbul edilməsi və cavablandırılması işini elektron formada həyata keçirə bilməz.

**196. Azərbaycan Respublikasının Konstitusiyasına əsasən Azərbaycan Respublikasının apellyasiya məhkəmələri hakimlərinin işdən kənarlaşdırılması haqqında Milli Məclisin qərarı qəbul edilir:**

A) 95 səs çoxluğu ilə
B) 83 səs çoxluğu ilə
C) 93 səs çoxluğu ilə
D) 63 səs çoxluğu ilə

**197. "Azərbaycan Respublikasının Dövlət himni haqqında Əsasnamə"yə əsasən Dövlət himninin mətn və musiqisi hansı normativ hüquqi aktla təsdiq edilmişdir?**

A) Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə
B) "Azərbaycan Respublikasının Dövlət himni haqqında" Azərbaycan Respublikasının Qanunu ilə
C) "Azərbaycan Respublikasının Dövlət himni haqqında Əsasnamə" ilə
D) "Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında" Konstitusiya Aktı ilə

**198. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən inzibati vəzifələrin 4-cü təsnifatına aiddir:**

A) Azərbaycan Respublikasının Hesablama Palatasının Aparatında şöbə müdirinin müavini vəzifəsi
B) Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Aparatında sektor müdiri vəzifəsi
C) Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin aparat rəhbərinin müavini vəzifəsi
D) Naxçıvan Muxtar Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (Ombudsmanın) aparat rəhbərinin müavini vəzifəsi

**199. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən dövlət qulluğuna xitam verilə bilər:**

A) intizam tənbeh tədbiri qaydasında dövlət qulluğundan azad edildikdə
B) dövlət qulluqçusu əmək qabiliyyətini fasiləsiz olaraq iki ay müddətinə itirdikdə
C) dövlət qulluqçusunun vəzifədən azad edilməsi haqqında Həmkarlar İttifaqı Təşkilatının qərarı olduqda
D) əmək mübahisələri komissiyası dövlət qulluqçusunun dövlət qulluğundan azad edilməsi haqqında verilmiş intizam tənbehi tədbirini qüvvədə saxladıqda

**200. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən 4-cü kateqoriya dövlət orqanıdır:**

A) yerli icra hakimiyyəti orqanları
B) ağır cinayətlər məhkəmələri
C) hərbi məhkəmələr
D) inzibati-iqtisadi məhkəmələr

**201. "Dövlət hakimiyyəti orqanlarında, idarə, təşkilat və müəssisələrində kargüzarlığın aparılmasına dair Təlimat"a əsasən aktın hazırlanması və tərtib edilməsi ilə bağlı düzgün *deyil:***

A) Şərh hissəsində akt tərtib edilməsinin məqsəd və vəzifələri, aparılmış işin mahiyyəti və xarakteri, müəyyən edilmiş faktlar, habelə nəticələr və təkliflər ifadə olunur.
B) Aktın mətni giriş və şərh hissələrindən ibarət olmalıdır.
C) Giriş hissəsində aktın tərtib edilməsinin əsası göstərilir.
D) Aktın mətninin sonunda (imzalardan qabaq) qəbul edilən qərarlar göstərilməlidir.

**202. Aşağıda göstərilən tələblərdən hansı Azərbaycan Respublikasının Milli Məclisinin deputatlığına namizədlərə aiddir:**

1. yaşı 25-dən aşağı olmayan
2. ikili vətəndaşlığı olan
3. başqa dövlət qarşısında öhdəliyi olmayan
4. hər hansı ödənişli fəaliyyətlə məşğul olan

**203. Azərbaycan Respublikasının Milli Məclisi aşağıdakı aktlardan hansını qəbul edir?**

1. qanun
2. sərəncam
3. qərar
4. fərman
5. konstitusiya qanunu

**204. Azərbaycan Respublikasının Milli Məclisi aşağıdakı məsələlərdən hansılara dair ümumi qaydalar müəyyən edir?**

1. fiziki və hüquqi şəxslərin statusu
2. referendum təyin edilməsi
3. dövlətlərarası müqavilələrin təsdiq və ləğv edilməsi
4. beynəlxalq müqavilələrin təsdiqi və ləğvi
5. dövlət qulluğu
6. Azərbaycan Respublikası Milli Məclisinin işinin təşkili
7. amnistiya
8. Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Azərbaycan Respublikasının hərbi doktrinasının təsdiqi

**205. Azərbaycan Respublikasının Milli Məclisi aşağıdakı məsələlərdən hansılara dair ümumi qaydalar müəyyən edir?**

1. inzibati ərazi bölgüsü
2. ərazi quruluşu
3. referendum
4. amnistiya
5. Azərbaycan Respublikasının Nazirlər kabinetinə etimad məsələsinin həll edilməsi
6. fövqəladə vəziyyət rejimi
7. dövlətlərarası müqavilələrin təsdiq və ləğv edilməsi
8. cinayətlərin və başqa hüquq pozuntularının müəyyən edilməsi, onların törədilməsinə görə məsuliyyətin təyin edilməsi

**206. Azərbaycan Respublikasının Milli Məclisi aşağıdakı məsələlərdən hansılara dair ümumi qaydalar müəyyən edir?**

1. rabitə və nəqliyyat işi
2. referendum təyin edilməsi
3. Azərbaycan Respublikası Prezidentinin təqdimatı ilə Azərbaycan Respublikası diplomatik nümayəndəliklərinin təsis edilməsi
4. Azərbaycan Respublikası Milli Məclisinin işinin təşkili
5. müdafiə və hərbi qulluq
6. Azərbaycan Respublikası Milli Məclisinin deputatlarının statusu
7. dövlət sərhədi rejimi
8. inzibati ərazi bölgüsü

**208. Azərbaycan Respublikasının Milli Məclisi aşağıdakı məsələlərdən hansılara dair ümumi qaydalar müəyyən edərkən 83 səs çoxluğu ilə qanunlar qəbul edir?**

1. bələdiyyələrə seçkilər və bələdiyyələrin statusu
2. referendum
3. Azərbaycan Respublikası Milli Məclisinin işinin təşkili
4. dövlətlərarası müqavilələrin təsdiq və ləğv edilməsi

5. Azərbaycan Respublikası Milli Məclisinin deputatlarının statusu
6. məhkəmə quruluşu və hakimlərin statusu
7. Azərbaycan Respublikası Prezidentinin seçkiləri

**207. Azərbaycan Respublikasının Milli Məclisi aşağıdakı məsələlərdən hansılara dair ümumi qaydalar müəyyən edərkən 83 səs çoxluğu ilə qanunlar qəbul edir?**

1. Azərbaycan Respublikası Milli Məclisinin deputatlarının statusu
2. bələdiyyələrə seçkilər və bələdiyyələrin statusu
3. Azərbaycan Respublikası Prezidentinin təqdimatı ilə Azərbaycan Respublikası dövlət büdcəsinin təsdiq edilməsi və onun icrasına nəzarət
4. Azərbaycan Respublikasının Milli Məclisinə seçkilər
5. Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Azərbaycan Respublikasının hərbi doktrinasının təsdiqi
6. referendum
7. inzibati ərazi bölgüsü
8. beynəlxalq müqavilələrin təsdiqi və ləğvi

**208. Azərbaycan Respublikasının Milli Məclisi aşağıdakı məsələlərdən hansılara dair ümumi qaydalar müəyyən edərkən 83 səs çoxluğu ilə qanunlar qəbul *etmir?***

1. ailə münasibətləri
2. referendum
3. Azərbaycan Respublikası Milli Məclisinin deputatlarının statusu
4. Azərbaycan Respublikası Prezidentinin seçkiləri
5. məhkəmə quruluşu və hakimlərin statusu
6. bələdiyyələrə seçkilər və bələdiyyələrin statusu
7. Azərbaycan Respublikasının Milli Məclisinə seçkilər

**209. Azərbaycan Respublikasının Milli Məclisi aşağıdakı məsələlərdən hansılara dair ümumi qaydalar müəyyən edərkən 83 səs çoxluğu ilə qanunlar qəbul *etmir?***

1. Azərbaycan Respublikasının Milli Məclisinə seçkilər
2. gömrük işi
3. ticarət işi və birja fəaliyyəti
4. Azərbaycan Respublikası Prezidentinin seçkiləri
5. beynəlxalq müqavilələrin təsdiqi və ləğvi
6. Azərbaycan Respublikası Milli Məclisinin deputatlarının statusu
7. bələdiyyələrə seçkilər və bələdiyyələrin statusu

**210. Azərbaycan Respublikasının Milli Məclisi aşağıdakı məsələlərdən hansılara dair ümumi qaydalar müəyyən edərkən 63 səs çoxluğu ilə qanunlar qəbul edir?**

1. beynəlxalq müqavilələrin təsdiqi və ləğvi
2. inzibati ərazi bölgüsü
3. Azərbaycan Respublikası Prezidentinin müraciətinə əsasən müharibə elan edilməsinə və sülh bağlanmasına razılıq verilməsi
4. bələdiyyələrə seçkilər
5. dövlətlərarası müqavilələrin təsdiq və ləğv edilməsi
6. müdafiə və hərbi qulluq
7. Azərbaycan Respublikasının Milli Məclisinə seçkilər
8. referendum təyin edilməsi
9. nümayəndəlik və vərəsəlik

**211. Azərbaycan Respublikasının Milli Məclisi aşağıdakı məsələlərdən hansılara dair ümumi qaydalar müəyyən edərkən 63 səs çoxluğu ilə qanunlar qəbul edir?**

1. Azərbaycan Respublikası Milli Məclisinin işinin təşkili
2. məhkəmə quruluşu və hakimlərin statusu
3. referendum təyin edilməsi
4. Azərbaycan Respublikası Milli Məclisinin deputatlarının statusu
5. maliyyə fəaliyyətinin əsasları
6. referendum
7. dövlətlərarası müqavilələrin təsdiq və ləğv edilməsi
8. bələdiyyələrin statusu

**212. Azərbaycan Respublikasının Milli Məclisi aşağıdakı məsələlərdən hansılara dair ümumi qaydalar müəyyən edərkən 63 səs çoxluğu ilə qanunlar qəbul edir?**

1. Azərbaycan Respublikasının Milli Məclisinə seçkilər və Azərbaycan Respublikası Milli Məclisinin deputatlarının statusu
2. Azərbaycan Respublikası Prezidentinin müraciətinə əsasən müharibə elan edilməsinə və sülh bağlanmasına razılıq verilməsi
3. Konstitusiyada təsbit edilmiş insan və vətəndaş hüquqlarından və azadlıqlarından istifadə, bu hüquqların və azadlıqların dövlət təminatı
4. Azərbaycan Respublikası Prezidentinin təqdimatı ilə Azərbaycan Respublikası diplomatik nümayəndəliklərinin təsis edilməsi
5. Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Azərbaycan Respublikasının hərbi doktrinasının təsdiqi
6. cinayətlərin və başqa hüquq pozuntularının müəyyən edilməsi, onların törədilməsinə görə məsuliyyətin təyin edilməsi
7. bələdiyyələrə seçkilər və bələdiyyələrin statusu
8. Azərbaycan Respublikası Prezidentinin təqdimatı ilə Azərbaycan Respublikası dövlət büdcəsinin təsdiq edilməsi və onun icrasına nəzarət

**213. Azərbaycan Respublikasının Milli Məclisi aşağıdakı məsələlərdən hansılara dair ümumi qaydalar müəyyən edərkən 63 səs çoxluğu ilə qanunlar qəbul edir?**

1. fövqəladə vəziyyət rejimi
2. referendum
3. inzibati ərazi bölgüsü
4. mülki hüquq obyektləri
5. amnistiya
6. dövlət sərhədi rejimi
7. dövlətlərarasi müqavilələrin təsdiq və ləğv edilməsi

**214. Azərbaycan Respublikasının Milli Məclisi aşağıdakı məsələlərdən hansılara dair ümumi qaydalar müəyyən edərkən 63 səs çoxluğu ilə qanunlar qəbul etmir?**

1. rabitə və nəqliyyat işi
2. Azərbaycan Respublikası Milli Məclisinin deputatlarının statusu
C) Azərbaycan Respublikasının Konstitusiyası və qanunları ilə barələrində intizam məsuliyyətinə cəlb olunmanın xüsusi qaydası nəzərdə tutulmuş şəxslər intizam məsuliyyətinə həmin qaydalara riayət edilməklə cəlb oluna bilərlər.
D) Komissiya bu Qanunun 5.1-ci maddəsində müəyyən edilmiş tələblərə əməl etməyən şəxslər barəsində rəsmi dövlət qəzetində məlumat dərc etdirə bilər.

**301. ” Korrupsiyaya qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının Qanununa görə hansı doğru *deyil?***
A) Bu Qanunun 7.1-ci maddəsinin tələblərini pozan şəxslər həmin tələblərin pozulması müəyyən edildikdən sonra 30 gün müddətində həmin pozuntunu könüllü olaraq aradan qaldırmadıqları halda tabeçiliyi istisna edən başqa vəzifəyə keçirilməli, bu mümkün olmadıqda isə həmin şəxslərdən biri tutduğu vəzifədən azad olunmalıdır.
B) Bu Qanunun 7.2-ci maddəsində göstərilən (yaxın qohumluqla bağlı) əsaslar üzrə vəzifədən azad olunmuş şəxslər digər orqanlarda, idarə, müəssisə və təşkilatlarda vəzifə tuta bilməzlər.
C) Vəzifəli şəxslərin yaxın qohumları, seçkili vəzifələr və qanunvericiliklə nəzərdə tutulan digər hallar istisna olmaqla, bilavasitə onun tabeliyində olan heç bir vəzifə tuta bilməzlər.
D) Vəzifəli şəxs xidməti vəzifələrinin qərəzsiz icrasına təsir edə bilən və ya bu cür təsir təsərrüfatı yaradan və ya onun vəzifələrinin icrası müqabilində mükafat qismində verilən və ya bu cür mükafat təsərrüfatı yaradan hədiyyələri özü və ya digər şəxslər üçün tələb edə və ya qəbul edə bilməz.

**302. ” Korrupsiyaya qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının Qanununa görə vəzifəli şəxs xidməti vəzifələrinin icrası ilə əlaqədar bir il ərzində hər hansı fiziki və ya hüquqi şəxsdən ümumi məbləği neçə manatdan yuxarı olan bir və ya neçə hədiyyəni qəbul edə *bilməz?***
A) 55 manat
B) 50 manat
C) 45 manat
D) 60 manat

**303. ” Korrupsiyaya qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının Qanununa görə hansı doğru *deyil?***
A) Vəzifəli şəxs hədiyyənin qəbul edilməsi və ya sadə qonaqpərvərlikdən istifadə ilə bağlı qərara gələ bilmədiyi hallarda, bu məsələ barədə dövlət oqranının rəhbərinin rəyini öyrənməlidir.
B) Fiziki və hüquqi şəxslərlə mülki-hüquqi əqdlərin bağlanması və ya onların icrası zamanı vəzifəli şəxslər tərəfindən xidməti fəaliyyəti ilə əlaqədar olaraq hər hansı güzəştlərin və ya imtiyazların əldə edilməsi qadağan olunur.
C) Vəzifəli şəxsə qanunsuz maddi və sair nemətlər, imtiyazlar və ya güzəştlər təklif olunduğu hallarda, vəzifəli şəxs onlardan imtina etməlidir.
D) Maddi və sair nemətlər, imtiyazlar və ya güzəştlər vəzifəli şəxsə ondan asılı olmayan səbəblərdən verilərsə, o, bu barədə birbaşa rəhbərinə məlumat verməli və maddi və sair nemətlər, imtiyazlar və ya güzəştlər vəzifəli şəxsin işlədiyi dövlət orqanına akt üzrə təhvil verilməlidir.

**304. ” Korrupsiyaya qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının Qanununa görə aşağıdakılardan hansı korrupsiya hüquqpozması *deyil?***
A) vəzifəli şəxsin xidməti vəzifəsinin (səlahiyyətlərinin) icrası ilə əlaqədar hər hansı hərəkətin edilməsi və ya belə hərəkətin edilməsindən imtina olunması müqabilində özü və yaxud üçüncü şəxslər üçün birbaşa və ya dolayı yolla maddi və sair nemətlər, imtiyazlar və ya güzəştlər tələb etmək, əldə etmək və ya belə maddi və sair nemətlərin, imtiyazların və ya güzəştlərin

verilməsi ilə bağlı təklifi və ya vədi qəbul etmək
B) xidməti vəzifəsinin (səlahiyyətlərinin) icrası ilə əlaqədar hər hansı hərəkətin edilməsi və ya belə hərəkətin edilməsindən imtina olunması müqabilində vəzifəli şəxsə onun özü və ya üçüncü şəxslər üçün fiziki və ya hüquqi şəxs tərəfindən birbaşa və ya dolayı yolla maddi və sair nemətlər, imtiyazlar və ya güzəştlər təklif etmək, vəd etmək və ya vermək
C) vəzifəli şəxs tərəfindən xidməti vəzifəsinin (səlahiyyətlərinin) icrası ilə əlaqədar hər hansı hərəkətin edilməsi və ya belə hərəkətin edilməsindən imtina olunması müqabilində qanunsuz olaraq alınmış əmlakdan özü və ya üçüncü şəxslər üçün mənfəət əldə etmək məqsədi ilə istifadə etmək
D) statusundan, təmsil etdiyi orqanın statusundan, vəzifə səlahiyyətlərindən və ya həmin status və səlahiyyətlərdən irəli gələn imkanlardan istifadə etməklə maddi və sair nemətlərin, imtiyazların və ya güzəştlərin əldə edilməsi məqsədi ilə fiziki və hüquqi şəxslərə sahibkarlıq fəaliyyətini həyata keçirməkdə, eləcə də subsidiyalar,subvensiyalar, dotasiyalar, kreditlər və digər güzəştlər alınmasında qanunsuz kömək etmək

**305. ” Korrupsiyaya qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının Qanununa görə aşağıdakılardan hansı korrupsiya hüquqpozması deyil?**
A) vəzifəli şəxs tərəfindən xidməti vəzifəsinin (səlahiyyətlərinin) icrası ilə əlaqədar maddi və sair nemətləri, imtiyazları və ya güzəştləri haqqı ödənilmədən və ya bazar qiymətlərindən və ya dövlət tərəfindən tənzimlənən qiymətlərdən aşağı qiymətə (tarifə) əldə etmək
B) vəzifəli şəxsin xidməti vəzifəsinin (səlahiyyətlərinin) icrası ilə əlaqədar əmanətlərdən (depozitlərdən), qiymətli kağızlardan, rentadan, royaltidən və ya icarədən Azərbaycan Respublikasının qanunvericiliyinə zidd olaraq gəlir götürmək
C) xidməti vəzifəsini (səlahiyyətlərini) icra etdiyi dövrdə elmi, pedaqoji və yaradıcılıq fəaliyyəti istisna olmaqla, digər ödənişli vəzifə tutmaq və ya fəaliyyət növü ilə məşğul olmaq
D) müəyyən mükafat müqabilində vəzifəli şəxsin qərarına qanunsuz təsir göstərmək imkanına malik olduğunu bildirən hər hansı şəxsə birbaşa və ya dolayı yolla maddi və sair nemətləri, imtiyazları və ya güzəştləri təklif etmək, vəd etmək və ya vermək

**306. ” Korrupsiyaya qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının Qanununa görə hansı korrupsiyaya şərait yaradan hüquqpozma *sayılmır?***
A) müəyyən mükafat müqabilində vəzifəli şəxsin qərarına qanunsuz təsir göstərmək imkanına malik olduğunu bildirən şəxs tərəfindən maddi və sair nemətləri, imtiyazları və ya güzəştləri qəbul etmək və ya belə maddi və sair nemətlərin, imtiyazların və ya güzəştlərin verilməsi ilə bağlı təklifi və ya vədi qəbul etmək
B) bilavasitə, başqa və ya uydurma şəxslər vasitəsilə sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq, əvəzçilik üzrə işləmək (elmi, pedaqoji və yaradıcılıq fəaliyyəti istisna olmaqla), habelə sahibkarlıq fəaliyyətini həyata keçirən təsərrüfat subyektlərinin və maliyyə kredit müəssisələrinin icra orqanlarının tərkibinə daxil olmaq
C) statusundan, təmsil etdiyi orqanın statusundan, vəzifə səlahiyyətlərindən və ya həmin status və səlahiyyətlərdən irəli gələn imkanlardan istifadə etməklə onun səlahiyyət dairəsinə daxil olmayan məsələlər üzrə digər dövlət orqanlarının fəaliyyətinə qanunsuz müdaxilə etmək
D) statusundan, təmsil etdiyi orqanın statusundan, vəzifə səlahiyyətlərindən və ya həmin status və səlahiyyətlərdən irəli gələn imkanlardan istifadə etməklə, şəxsi maraqlarına aid məsələlərin həllinə təsir etmək

**307. ” Korrupsiyaya qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının Qanununa görə hansı doğru *deyil?***
A) Korrupsiya ilə əlaqədar hüquqpozmalara görə intizam məsuliyyəti tədbirləri bu Qanunla və digər qanunvericilik aktları ilə tənzimlənir.
B) Azərbaycan Respublikasının Konstitusiyası və qanunları ilə müəyyən olunmuş qaydada dövlət orqanlarına seçilmiş şəxslər bu Qanunun 9-cu maddəsində göstərilən hüquqpozmaları törətdikdə, korrupsiyaya qarşı mübarizə aparan orqan bu barədə vəzifəli şəxsin seçildiyi dövlət orqanına məlumat verir.
C) Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada yerli özünüidarəetmə orqanlarına seçilmiş şəxslər bu Qanunun 9-cu maddəsində göstərilən hüquqpozmaları törətdikdə, korrupsiyaya qarşı mübarizə aparan orqan bu barədə müvafiq seçki komissiyasına məlumat verir.

D) Həmin seçki komissiyası isə bu barədə materiallar ona daxil olduğu gündən beş gün ərzində şəxsin yol verdiyi hüquqpozma barədə onun seçildiyi mərkəzi icra hakimiyyəti orqanına məlumat verir.

**308. ” Korrupsiyaya qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının Qanununa görə korrupsiya ilə əlaqədar hüquqpozmalara görə vəzifəli şəxslərin məsuliyyəti hansı bənddə düzgün *göstərilməyib?***

A) intizam
B) mülki
C) inzibati
D) cinayət

**309. ” Korrupsiyaya qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının Qanununa görə hakimlər bu qanunun 9-cu maddəsində göstərilən hüquqpozmaları törətdikdə korrupsiyaya qarşı mübarizə aparan orqan intizam tənbehinin tətbiqi məsələsinə baxılması üçün bu barədə hansı orqana məlumat verir?**

A) Konstitusiya Məhkəməsinə
B) Ali Məhkəməyə
C) Məhkəmə-Hüquq Şurasına
D) Milli Məclisə

**310. ” Korrupsiyaya qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının Qanununa görə Azərbaycan Respublikasının dövlət orqanlarında seçkili vəzifələrə namizədliyi qanunla müəyyən olunmuş qaydada qeydə alınmış şəxslər bu Qanunun 9-cu maddəsində göstərilən hüquqpozmaları törətdikdə, onlar barəsində hansı Qanunda nəzərdə tutulmuş tədbirlər görülür?**

A) Əmək Məcəlləsi
B) İnzibati-Xətalar Məcəlləsi
C) Seçki Məcəlləsi
D) Cinayət Məcəlləsi

**311. ” Korrupsiyaya qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının Qanununa görə hansı doğru *deyil?***

A) Qanunvericiliklə müəyyən edilmiş korrupsiya hüquqpozmalarını törətmiş fiziki şəxslərin hərəkətləri cinayət tərkibi yaratmadıqda, onlar inzibati qaydada cərimə edilirlər.
B) Qanunvericiliklə müəyyən edilmiş korrupsiya hüquqpozmalarını törətmiş hüquqi şəxslər, qanunvericiliklə müəyyən edilmiş qaydada onların yalnız fəaliyyətinə xitam verilir.
C) Vəzifəli şəxslər tərəfindən qanunsuz əldə edilmiş əmlak və qanunsuz əldə edilmiş imtiyazlar və ya güzəştlərin dəyəri könüllü olaraq dövlət nəfinə ödənilir.
D) Vəzifəli şəxslər qanunsuz əldə edilmiş əmlakı könüllü olaraq qaytarmaqdan və ya güzəştlərin dəyərini, habelə qanunsuz əldə edilmiş imtiyaz və ya güzəştlərin dəyərini könüllü olaraq ödəməkdən imtina etdikdə, qanunsuz əldə edilmiş əmlak və ya onun dəyəri, qanunsuz əldə edilmiş güzəşt və ya imtiyazların dəyəri müvafiq dövlət orqanlarının iddiası əsasında məhkəmə tərəfindən dövlətin nəfinə ödənilir.

**312. ” Korrupsiyaya qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının Qanununa görə işə məhkəmədə baxılana qədər iddianın təmin edilməsi üçün məhkəmə tərəfindən cavabdehin əmlakı barədə hansı qanunvericiliklə müəyyən edilmiş qaydada tədbirlər görülə bilər?**

A) Cinayət
B) Mülki
C) Mülki-prosessual
D) İnzibati-xətalar

**313. ” Korrupsiyaya qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının Qanununa görə korrupsiya ilə əlaqədar hüquqpozmalar nəticəsində qəbul olunmuş aktlar hansı orqanlar tərəfindən ləğv edilə bilər?**

A) müvafiq dövlət orqanları
B) məhkəmə
C) müvafiq dövlət orqanları və məhkəmə
D) Prokurorluqlar

**314. “Dövlət qulluqçularının etik davranış qaydaları haqqında” Azərbaycan Respublikasının Qanunu nəyi müəyyən edir?**

A) Dövlət qulluqçular üçün sosial-ictimai davranı qaydalarını və prinsiplərini və onlara əməl edilməsi ilə bağlı hüquqi mexanizmləri;
B) Dövlət orqanlarında çalışan bütün şəxslər üçü etik davranış qaydalarını və prinsiplərini və onlar əməl edilməsi ilə bağlı hüquqi mexanizmləri;
C) Dövlət qulluqçular üçün etik davranış qaydalarını və prinsiplərini və onlara əməl edilməsi ilə bağlı hüquqi mexanizmləri;
D) AR-da dövlət qulluğu sahəsində dövlətlə dövlət qulluqçuları arasında yaranan münasibətləri;

**315. “Dövlət qulluqçularının etik davranış qaydaları haqqında” Azərbaycan Respublikasının Qanunu kimlərə şamil olunur?**
A) Dövlət orqanlarında işləyən bütün şəxslərə
B) Dövlət qulluçusu statusuna malik olan bütün şəxslərə
C) Yalnız yardımçı vəzifə tutan şəxslərə
D) Yalnız inzibati vəzifə tutan şəxslərə

**316. Aşağıda göstərilənlərdən hansı “Dövlət qulluqçularının etik davranış qaydaları haqqında” Azərbaycan Respublikası Qanunun məqsədlərinə aiddir:**
1. dövlət orqanlarının və dövlət qulluğunun nüfuzunun artırılması;
2. dövlət qulluqçularının attestasiyasının və xidməti fəaliyyətinin obyektiv qiymətləndirilməsinin təmin edilməsi;
3. dövlət orqanlarında korrupsiyanın və dövlət qulluqçularının fəaliyyətində maraqların toqquşmasının qarşısının alınması;
4.vətəndaşların dövlət orqanlarına və dövlət qulluqçularına etimadının yüksəldilməsi;
5. dövlət qulluqçularının ixtisas və peşə hazırlığının yüksəldilməsinin təmin edilməsi;
A) 3, 4, 5
B) 1, 3, 5
C) 2, 3, 4
D) 1, 3, 4

**317. Aşağıda göstərilənlərdən hansı “Dövlət qulluqçularının etik davranış qaydaları haqqında” Azərbaycan Respublikası Qanunun məqsədlərinə aid deyildir?**
1. dövlət orqanlarının və dövlət qulluğunun nüfuzunun artırılması;
2. dövlət qulluqçularının attestasiyasının və xidməti fəaliyyətinin obyektiv qiymətləndirilməsinin təmin edilməsi;
3. dövlət orqanlarında korrupsiyanın və dövlət qulluqçularının fəaliyyətində maraqların toqquşmasının qarşısının alınması;
4. vətəndaşların dövlət orqanlarına və dövlət qulluqçularına etimadının yüksəldilməsi;
5. dövlət qulluqçularının ixtisas və peşə hazırlığının yüksəldilməsinin təmin edilməsi;
A) 2,5
B) 2,3
C) 1,3,5
D) 2,3,5

**318. “Dövlət qulluqçularının etik davranış qaydaları haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən, aşağıda göstərilənlərdən hansı səhvdir?**
A) Dövlət qulluqçularının xidmətidavranışı bu qanunla müəyyən edilmiş etik davranış qaydlarına və prinsiplərinə əsaslanmalıdır.
B) Dövlət qulluqçusu dövlət orqanı tərəfindən açıq çıxışlarla bağlı müəyyən olunmuş qaydalara əməl etməyə borclu deyildir.
C) Dövlət qulluqçusu bütün hallarda hər bir şəxs üçün vicdanlılıq nümunəsi olmalıdır.
D) Bu qanun dövlət qulluqçulari üçün etuk davranış qaydalarını və prinsiplərini və onlara əməl edilməsi ilə bağlı hüquqi mexanizmləri müəyyən edir.

**319. “Dövlət qulluqçularının etik davranış qaydaları haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən, dövlət qulluqçusu tərəfindən qanuni göstərişlərin yerinə yetirilməməsi hansı məsuliyyətə səbəb olur**.
A) İntizam
B) inzibati
C) cinayət
D) intizam və inzibati

**320. Dövlət qulluqçusunun xidməti davranışı hansı qanunvericilik aktlarına uyğun olaraq tənzimlənir?**
A) “Korrupsiyaya qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının qanununa əsasən
B) Əmək Məcəlləsinə uyğun olaraq
C) “Dövlət qulluqçularının etik davranış qaydaları haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən
D) Heç biri

**321. “Dövlət qulluqçularının etik davranış qaydaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq aşağıda göstərilənlərdən hansı düzgündür?**
A) Bu qanun dövlət orqanlarında çalışan bütün şəxslərə şamil edilir
B) Dövlət qulluqçusu qanunla nəzərdə tutulmuş qaydada hər bir şəxs üçün vicdanlılıq nümunəsi olmalıdır
C) Dövlət qulluqçusu ictimai etimadın bərpası üçün tədbirlər görməyə borcludur
D) Bu qanun 25 may 2007-ci ildə qüvvəyə minmişdir

**322. Dövlət qulluqçularının xidməti davranışı nəyə əsaslanmalıdır?**
A) İctimai prinsiplərə
B) Dövlət orqanının rəhbərə tərəfindən müəyyən olunmuş prinsiplərə
C) Həmkarlar ittifaqının müəyyən etdiyi prinsiplərə
D) Etik davranış qaydalarına və prinsiplərinə

**323. “Dövlət qulluqçularının etik davranış qaydaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq aşağıda göstərilənlərdən hansı etik davranış qaydalarına aid deyildir?**

A) Peşəkarlıq və fərdi məsuliyyətin artırılması
B) Qərəzlilik
C) Vicdanlı davranış
D) Loyallıq

**324. Dövlət qulluqçusu başqa işə keçmə ilə əlaqədar təkliflərin maraqların toqquşmasına səbəb ola biləcəyi hallarda, bu barədə kimə məlumat verməlidir?**

A) Bilavasitə rəhbərinə
B) Müvafiq icra haakimiyyətinin rəhbərinə
C) Dövlət orqanının rəhbərinə
D) Nəzarət orqanının rəhbərinə

**325. Maraqlar toqquşmasının qarşısının alınması ilə bağı aşağıdakılardan hansı qanunauyğun deyil?**

A) Dövlət qulluqçusu qulluq etdiyi dövrdə maraqların toqquşmasına yol verməməlidir.
B) Dövlət qulluğuna xitam verildikdən sonra dövlət qulluqçusu qanunvericiliklə müəyyən edilmiş müddət əzrində əvvələr fəaliyyətinə nəzarət etdiyi təşkilatlara işə qəbul edilə bilməz.
C) Dövlət qulluqçusu maraqların toqquşmasının qarşısını almaq üçün qanunvericilikdə nəzərdə tutulmuş digər tədbirlər görməlidir.
D) Dövlət qulluğuna xitam verildikdən sonra dövlət qulluqçusu qanunvericiliklə müəyyən edilmiş müddət əzrində əvvələr fəaliyyətinə nəzarət etdiyi təşkilatların bölmələrinə işə qəbul edilə bilər.

**326. “Dövlət qulluqçularının etik davranış qaydaları haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən dövlət qulluqçusunun ictimai və ya siyasi fəaliyyəti ilə bağlı aşağıdakılardan hansı *doğru deyil*?**

A) Bütün hallarda dövlət qulluqçusu ictimai və siyasi birliyə üzv olmaq hüququna malikdir.
B) Dövlət qulluqçusuna dövlət orqanlarında ictimai və siyasi birliklərin struktur bölmələrini yaratmaq qadağandır.
C) Dövlət qulluqçusunun ictimai və ya siyasi faəliyyəti onun xidməti vəzifələrini qərəzsiz və obyektiv yerinə yetirdiyinə ictimai şübhə doğurmamlıdır.
D) Dövlət qulluqçusuna seçkilər zamanı öz vəzifə mövqeyindən özünün və ya digər namizədlərin xeyrinə istifadə etmək qadağandır.

**327. Dövlət qulluqçusunun ictimai və ya siyasi fəaliyyəti ilə bağlı aşağıdakılardan hansı qanunauyğundur?**

A) Dövlət qulluqçusu qulluq mövqeyindən istifadə edərək , digər dövlət qulluqçularını ictimai və ya siyasi birliklərin fəaliiyətində iştiraka təhrik etməməlidir.
B) Bütün hallarda dövlət qulluqçusu ictimai və siyasi birliyə üzv olmaq hüququna malikdir.
C) Dövlət qulluqçusunun ictimai və ya siyasi faəliyyəti onun xidməti vəzifələrini qərəzli və obyektiv yerinə yetirdiyinə ictimai şübhə doğurmamlıdır.
D) Dövlət qulluqşusunun dövlət orqanlarında ictimai birliklərin struktur bölmələrinin yaradılmasına yardım etmək hüququ verilir.

**328. Etik davranış qaydalarına əməl olunmasın nəzarəti həyata keçirən müvafiq dövlət orqanı (Nəzarət orqanı) aşağıdakılardan hansıdır?**

A) Maliyyə Nazirliyi
B) DQMK
C) AR-nın Dövlət Qulluğunu İdaretmə Şurası
D) Nazirlər Kabineti

**329. “Dövlət qulluqçularının etik davranış qaydaları haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən aşağıdakılardan hansı Nəzarət orqanının səlahiyyətlərinə aid *deyil?***

A) Bu qanunla müəyyən edilmiş etik davraniş qaydalarına əməl edilməsi vəziyyətini öyrənir və bu barədə məlumatları ümumiləşdirir.
B) Dövlət qulluqçularından və digər şəxslərdən bu qanunun müddəalarının pozulması ilə bağlı şikayətlər və məlumatlar qəbul edir.
C) Etik davranış qaydalarını pozan dövlət qulluqçularının intizam məsuliyyətinə cəlb edilməsi üçün tədbirlər görməlidir.
D) Dövlət qulluqçularının etik davranış məsələri ilə bağlı qanunvericiliyin təkmilləşdirilməsinə dair təkliflər verir.

**330. “Dövlət qulluqçularının etik davranış qaydaları haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən aşağıdakılardan hansı müvafiq dövlət orqanının (Nəzarət orqanının) səlahiyyətlərinə aid *deyil?***

A) Tabeliyində olan dövlət qulluqçılarının xidməti davranışlarının bu qanunla müəyyən olunan davranış qaydalarına uyğunluğunu nəzarət etməli və onun təhlilini aparmalıdır.
B) Dövlət qulluqçularının etik davranış məsələri üzrə araşdırmalar aparır, bu məsələrlə bağlı tövsiyələr tərtib edir.
C) Daxil olmuş materiallarda hüquqpozmaların əlamətləri olduqda həmin materialları yoxlanılması üçün müvafiq orqanlara göndərir.

D) Dövlət qulluqçularının etik davranış məsələri üzrə qeyri-hökümət təşkilatları ilə əməkdaşlıq edir.

**331. Etik davranış qaydalarının pozulması dövlət qulluqçusunun hansı məsuliyyətə cəlb edilməsi üçün əsasdır?**
A) intizam
B) inzibati
C) cinayət
D) heç biri

**332. Dövlət qulluqçularının etik davranış qaydaları haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən aşağıda göstərilənlərdən hansı *səhvdir?***
A) Etik davranış qaydalarına əməl olumasına nəzarəti dövlət orqanının rəhbəri tabeçilik əsasında həyata keçirir.
B) Etik davranış qaydalarına əməl olumasına nəzarəti yuxarı orqan tabeçilik əsasında həyata keçirir.
C) Etik davranış qaydalarına əməl olumasına nəzarəti müvafiq dövlət orqanı bu qanunla müəyyənləşdirilmiş qaydada həyata keçirir.
D) Dövlət qulluqçusu bütün şəxslərə, o cümlədən birbaşa və yuxarı rəhbər ilə və ya tabeliyində olan şəxslərə münasibətdə xeyirxah,nəzakətli,diqqətli və səbirli olmalıdır.

**333. Dövlət qulluqçularının etik davranış qaydaları haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən aşağıda göstərilənlərdən hansı *səhvdir?***
A) Şəxsin,cəmiyyətin və dövlətin maraqları naminə dövlət qulluqçuları öz vəzifə borcunu səmərəli yerinə yetirməyə borcludur.
B) Qanunvericilikdə müəyyən olunmuş qaydadaşəxslərə əvəzsiz xidmət göstərən dövlət qulluqçusuhəmin xidmətə görə əlavə haqq tələb edə bilməz.
C) Tərəflərdən biri dövlət qulluqçusunun qulluq keçdiyi dövlət orqanı olan
əqdlərdə həmin dövlət qulluqçusu digər tərəf ola bilər.
D) Dövlət qulluqçularının xidmətidavranışı bu qanunla müəyyən edilmiş etik davranış qaydlarına və prinsiplərinə əsaslanmalıdır.

**334. " Dövlət qulluqçularının etik davranış qaydaları haqqında" Azərbaycan Respublikasının Qanununa görə nə vaxt qəbul edilib?**
A) 21 may 2007-ci il
B) 31 iyun 2010-cu il
C) 21 may 2009-cu il
D) 31 may 2007-ci il

**335. " Dövlət qulluqçularının etik davranış qaydaları haqqında" Azərbaycan Respublikasının Qanununa görə etik davranış qaydaları kimə şamil olunur?**
A) bütün dövlət qulluqçularına
B) yalnız inzibati vəzifədə çalışanlara
C) yalnız yardımçı vəzifədə çalışanlara
D) dövlət orqanında işləyən bütün şəxslərə

**336. " Dövlət qulluqçularının etik davranış qaydaları haqqında" Azərbaycan Respublikasının Qanununa görə hər bir dövlət qulluqçusu qanunun müddəalarına əməl etməyə borcludur. Dövlət qulluqçusu Qanunun müddəalarına əməl edərkən aşağıdakılardan hansını rəhbər tutmur?**
A) qanunun aliliyini
B) insan hüquqlarını
C) ictimai prinsipləri
D) yüksək etik davranış qaydalarını

**337. " Dövlət qulluqçularının etik davranış qaydaları haqqında" Azərbaycan Respublikasının Qanununa görə aşağıdakılardan hansı qanunun məqsədlərinə aid deyil?**
A) dövlət orqanlarının və dövlət qulluğunun nüfuzunun artırılması, vətəndaşların dövlət orqanlarına və dövlət qulluqçularına etimadının yüksəldilməsi
B) dövlət orqanları və dövlət qulluqçularının fəaliyyətində səmərəliliyin və şəffaflığın artırılması
C) dövlət orqanlarında korrupsiyanın və dövlət qulluqçularının fəaliyyətində maraqların toqquşmasının qarşısının alınması
D) dövlət orqanlarında çalışan bütün şəxslər tərəfindən etik davranış qaydalarına əməl olunmasının təmin edilməsi

**338. " Dövlət qulluqçularının etik davranış qaydaları haqqında" Azərbaycan Respublikasının Qanununa görə aşağıdakılardan hansı qanunun məqsədlərinə aid *deyil?***
A) dövlət qulluqçularından gözlənilən davranış barədə vətəndaşların məlumatlandırılması;
B) dövlət orqanlarının və dövlət qulluqçularının fəaliyyətinin qiymətləndirilməsinə vətəndaçların təsiri imkanlarının genişləndirilməsi.
C) dövlət orqanlarının və dövlət qulluğunun nüfuzunun artırılması, vətəndaşların dövlət orqanlarına və dövlət qulluqçularına etimadının yüksəldilməsi
D) dövlət orqanları və dövlət qulluqçularının fəaliyyətində loyallığın və qərəzsizliyin artırılması

**339. ” Dövlət qulluqçularının etik davranış qaydaları haqqında” Azərbaycan Respublikasının Qanununa görə aşağıdakılardan hansı doğru *deyil?***
A) Dövlət qulluqçusunun xidməti davranışı qanunvericiliklə ona verilmiş hüquqların həyata keçirilməsi və vəzifələrinin yerinə yetirilməsi ilə əlaqədar fəaliyyətidir.
B) Dövlət qulluqçusunun xidməti davranışı bu Qanunla müəyyən edilmiş etik davranış qaydalarına və prinsiplərinə əsaslanmalıdır.
C) Dövlət qulluqçusunun xidməti davranışı bu Qanuna və digər normativ hüquqi aktlara uyğun olaraq tənzimlənir
D) Bu Qanunla müəyyən olunmuş etik davranış qaydalarını dəqiqləşdirən normalar, onlara riayət olunması ilə bağlı təminatlar dövlət orqanlarının digər normativ hüquqi aktları ilə müəyyənləşdirilə bilməz.

**340. ” Dövlət qulluqçularının etik davranış qaydaları haqqında” Azərbaycan Respublikasının Qanunu nə vaxt qüvvəyə minib?**
A) Dərc edildiyi gündən
B) 21 may 2007-ci ildən
C) 31 may 2007-ci ildən
D) 1 yanvar 2008-ci ildən

**341. ” Dövlət qulluqçularının etik davranış qaydaları haqqında” Azərbaycan Respublikasının Qanununa görə etik davranış qaydalarına aşağıdakılardan hansı aid *deyil?***
A) Vicdanlı davranış
B) Peşəkarlıq və ictimai məsuliyyətin artırılması
C) Loyallıq
D) İctimai etimad

**342. ” Dövlət qulluqçularının etik davranış qaydaları haqqında” Azərbaycan Respublikasının Qanununa görə hansı doğru *deyil?***
A) Şəxsin, cəmiyyətin və dövlətin maraqları naminə dövlət qulluqçuları öz vəzifə borcunu səmərəli yerinə yetirməyə borcludur.
B) Qanunvericilikdə nəzərdə tutulmuş xüsusi hallar istisna olmaqla, dövlət qulluqçusu bütün hallarda hər bir şəxs üçün vicdanlılıq nümunəsi olmalıdır.
C) Dövlət qulluqçusu öz fəaliyyətini Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən olunmuş səlahiyyətlər çərçivəsində və peşəkarlıq səviyyəsində yerinə yetirməyə borcludur.
D) Dövlət qulluqçusu etik davranışı və öz peşəkar fəaliyyəti ilə dövlət orqanlarına hüquqi və fiziki şəxslərin inamını artırmalı və möhkəmləndirməlidir.

**343. ” Dövlət qulluqçularının etik davranış qaydaları haqqında” Azərbaycan Respublikasının Qanununa loyallıq anlayışına aşağıdakılardan hansı aid *deyil?***
A) Dövlət qulluqçusu onun xidməti vəzifəsinə aid olmadığı hallarda, dövlət orqanlarının, onların rəhbərlərinin fəaliyyəti ilə əlaqədar (qanunsuz fəaliyyət istisna olmaqla) tənqidi ictimai mülahizələrdən, çıxışlardan və onların fəaliyyətinə ictimai qiymət verilməsindən çəkinməlidir.
B) Dövlət qulluqçusu dövlət qulluğu ilə bağlı vəzifələrin icrası ilə bir araya sığmayan və onun adına xələl gətirə biləcək, habelə dövlət orqanının nüfuzunu aşağı sala biləcək hərəkətlərə yol verməməlidir.
C) Dövlət qulluqçusu dövlət orqanı tərəfindən açıq çıxışlarla bağlı müəyyən olunmuş qaydalara əməl etməlidir.
D) Dövlət qulluqçusu Azərbaycan Respublikasının, dövlət orqanının və dövlət qulluğunun nüfuzunu möhkəmləndirməyə, öz adını və şərəfini uca tutmağa borcludur.

**344. ” Dövlət qulluqçularının etik davranış qaydaları haqqında” Azərbaycan Respublikasının Qanununa görə hansı doğru *deyil?***
A) Dövlət qulluqçusu etik davranış qaydalarının onun tərəfindən pozulması nəticələrini aradan qaldırmağa, o cümlədən ictimai etimadın bərpası üçün tədbirlər görməyə borcludur.
B) Dövlət qulluqçusu dövlət orqanlarının və onların vəzifəli şəxslərinin fəaliyyəti barədə ictimaiyyəti məlumatlandıran kütləvi informasiya vasitələri nümayəndələrinin qanunla müəyyən edilmiş hallarda və qaydada doğru (dürüst) məlumatlar almasına köməklik göstərməlidir.
C) Dövlət qulluqçularının fəaliyyəti hüquqi şəxslərin maraqlarının təmin olunmasına (qorunmasına və müdafiəsinə) xidmət etməlidir.
D) Dövlət qulluqçusu insanların hüquq və azadlıqlarını, qanuni maraqlarını pozan, onların şərəf, ləyaqət və işgüzar nüfuzunu ləkələyə biləcək qərarlara və hərəkətlərə (və ya hərəkətsizliyə) yol verməməlidir.

**345. ” Dövlət qulluqçularının etik davranış qaydaları haqqında” Azərbaycan Respublikasının Qanununa görə hansı doğru *deyil?***
A) Dövlət qulluqçularının fəaliyyəti insanların hüquq, azadlıq və qanuni maraqlarının təmin olunmasına (qorunmasına və müdafiəsinə) xidmət etməlidir.
B) Dövlət qulluqçusu hüquqi şəxslərin işgüzar nüfuzuna hörmətlə yanaşmalı və onların işgüzar nüfuzunu ləkələyə biləcək hərəkətlərə (və ya hərəkətsizliyə) yol verməməlidir.

C) Dövlət qulluqçusu insanların hüquq və azadlıqlarını, qanuni maraqlarını pozan, onların şərəf, ləyaqət və işgüzar nüfuzunu ləkələyə biləcək qərarlara və hərəkətlərə (və ya hərəkətsizliyə) yol verməməlidir.
D) dövlət qulluqçusu bütün hallarda xidməti vəzifələrinin icrası ilə bağlı fiziki şəxslərin, habelə digər dövlət qulluqçularının şəxsi həyatı, şərəf və ləyaqəti barədə ona məlum olmuş məlumatların konfidensiallığını təmin etməlidir.

**346. ” Dövlət qulluqçularının etik davranış qaydaları haqqında” Azərbaycan Respublikasının Qanununa görə etik davranış qaydalarına aşağıdakılardan hansı aid *deyil?***
A) İnsanların hüquq, azadlıq və qanuni maraqlarına, şərəf və ləyaqətinə və işgüzar nüfuzuna hörmət. Hüquqi şəxslərin işgüzar nüfuzuna hörmət
B) Mədəni davranış
C) Əmr, sərəncam və ya tapşırıqların yerinə yetirilməsi
D) Qərəzlilik

**347. ” Dövlət qulluqçularının etik davranış qaydaları haqqında” Azərbaycan Respublikasının Qanununa görə hansı doğru *deyil?***
A) Qanuni göstərişlərin yerinə yetirilməməsi inzibati məsuliyyətinə səbəb olur.
B) Dövlət qulluqçusu bütün şəxslərə, o cümlədən birbaşa və yuxarı rəhbəri ilə və ya tabeliyində olan şəxslərə münasibətdə nəzakətli, xeyirxah, diqqətli və səbrli olmalıdır.
C) Dövlət qulluqçusu birbaşa və ya yuxarı rəhbərinin qanuna uyğun olan və səlahiyyətləri daxilində qəbul etdiyi yazılı əmri, sərəncamı və ya verdiyi şifahi tapşırıqları yerinə yetirməyə borcludur.
D) Birbaşa rəhbərindən yazılı şəkildə təsdiq edilmiş əmr, sərəncam və ya tapşırıq almasına baxmayaraq, dövlət qulluqçusu onların qanuna, yaxud digər normativ hüquqi akta zidd olmasına inanmaqla davam edərsə, o, həmin əmr, sərəncam və ya tapşırığın yerinə yetirilməsindən imtina edə bilər.

**348. ” Dövlət qulluqçularının etik davranış qaydaları haqqında” Azərbaycan Respublikasının Qanununa görə hansı doğru *deyil?***
A) Dövlət qulluqçusu xidməti vəzifəsini yerinə yetirərkən və ya qərar qəbul edərkən qərəzsiz olmalı və bu zaman irqinə, milliyətinə, dilinə, cinsinə, sosial mənşəyinə, əqidəsinə, ictimai və ya hər hansı digər birliyə mənsubiyyətinə görə hər hansı şəxsin və ya şəxslər qrupunun üstünlüyünə və ya belə üstünlüyün əldə edilməsi üçün şəraitin yaradılmasına yol verməməlidir.
B) Dövlət qulluqçusu xidməti vəzifələrinin yerinə yetirilməsi zamanı siyasi bitərəfliyə əməl etməyə borcludur.
C) Birbaşa rəhbər tərəfindən dövlət qulluqçusunun hərəkətlərinin (hərəkətsizliyinin) və ya qərarlarının maddi və qeyri-maddi nemətlər, imtiyazlar və ya güzəştlər əldə etməyə gətirib çıxarmasını istisna edən tədbirlər görülməlidir.
D) Dövlət qulluqçusu özünün və ya maraqlı şəxslərin mənafelərinin onun xidməti vəzifələrinin yerinə yetirilməsinə təsirinə yol verməməli və bu cür təsir üçün şərait yaratmamalıdır.

**349. ” Dövlət qulluqçularının etik davranış qaydaları haqqında” Azərbaycan Respublikasının Qanununa görə hansı doğru *deyil?***
A) Dövlət qulluqçusunun qanunsuz olaraq maddi və qeyri-maddi nemətlər, imtiyazlar və ya güzəştlər əldə etməyə yönəlmiş hərəkətlər (hərəkətsizlik) etməsi və ya qərarlar qəbul etməsi qadağandır.
B) Tərəflərdən biri dövlət qulluqçusunun işlədiyi dövlət orqanı olan əqdlərdə həmin dövlət qulluqçusunun digər tərəf kimi iştirak etməsini qanun qadağan etmir.
C) Qanunvericiliklə müəyyən olunmuş ödəniş müqabilində vətəndaşlara xidmət (xidmətlər) göstərən dövlət qulluqçusu həmin xidmətə (xidmətlərə) görə nəzərdə tutulan məbləğdən artıq haqq tələb edə bilməz.
D) Qanunvericiliklə müəyyən olunmuş qaydada şəxslərə əvəzsiz xidmət (xidmətlər) göstərən dövlət qulluqçusu həmin xidmətə (xidmətlərə) görə hər hansı haqq tələb edə bilməz.

**350. ” Dövlət qulluqçularının etik davranış qaydaları haqqında” Azərbaycan Respublikasının Qanununa görə etik davranış qaydalarına aşağıdakılardan hansı aid *deyil?***
A) Maddi və qeyri-maddi nemətlərin, imtiyazların və ya güzəştlərin əldə edilməsinə yol verilməməsi
B) Korrupsiyanın qarşısının alınması
C) Hədiyyə alma ilə əlaqədar güzəştlər
D) Maraqlar toqquşmasının qarşısının alınması

**351. ” Dövlət qulluqçularının etik davranış qaydaları haqqında” Azərbaycan Respublikasının Qanununa görə hansı doğru *deyil?***
A) Dövlət qulluqçusu qulluq etdiyi dövrdə maraqların toqquşmasına yol verməməlidir və qanunsuz olaraq öz vəzifə səlahiyyətlərindən şəxsi maraqları üçün istifadə etməməlidir.
B) Dövlət qulluqçusunun xidməti vəzifələri ilə onun şəxsi maraqları arasında ziddiyyət yarana biləcəyi hallarda, o, qanunvericiliyə müvafiq olaraq, dövlət qulluğuna qəbul olunduqda, habelə bundan sonrakı

dövrdə həmin maraqların xarakteri barədə məlumat verməyə borcludur.
C) Dövlət qulluqçusu başqa işə keçmə ilə əlaqədar təkliflərin maraqların toqquşmasına səbəb ola biləcəyi hallarda, bu barədə birbaşa rəhbərinə məlumat verməlidir.
D) Dövlət qulluqçusu dövlət qulluğundan getdikdən sonra qanunvericiliklə müəyyən edilmiş müddət ərzində əvvəllər fəaliyyətinə nəzarət etdiyi idarə, müəssisə, təşkilatlata və ya onların bölmələrinə işə qəbul edilə bilməz.

**352. " Dövlət qulluqçularının etik davranış qaydaları haqqında" Azərbaycan Respublikasının Qanununa görə dövlət qulluqçularının ictimai və ya siyasi fəaliyyətinə aid *doğru olmayan* variant hansıdır?**
A) Qanunvericiliklə başqa qayda nəzərdə tutulmamışdırsa, dövlət qulluqçusu ictimai və ya siyasi birliyə üzv olmaq hüququna malikdir.
B) Dövlət qulluqçusunun ictimai və ya siyasi fəaliyyəti, yaxud ictimai və ya siyasi birliyə mənsubiyyəti onun xidməti vəzifələrini qərəzsiz və obyektiv yerinə yetirdiyinə ictimai şübhə doğurmamalıdır.
C) Dövlət qulluqçusu qulluq mövqeyindən istifadə edərək digər dövlət qulluqçularını ictimai və ya siyasi birliklərin və dini təşkilatların fəaliyyətində iştiraka təhrik etməməlidir.
D) Qulluq vəzifələrini icra etdiyi dövrdə siyasi partiyaların fəaliyyətində iştirak etməyə ixtiyarı yoxdur

**353. " Dövlət qulluqçularının etik davranış qaydaları haqqında" Azərbaycan Respublikasının Qanununa görə etik davranış qaydalarına aşağıdakılardan hansı aid *deyil?***
A) Əmlakdan istifadə
B) Elmi və yaradıcılıq fəaliyyəti
C) Məlumatlardan istifadə
D) İctimai və ya siyasi fəaliyyət

**354. " Dövlət qulluqçularının etik davranış qaydaları haqqında" Azərbaycan Respublikasının Qanununa görə etik davranış qaydalarına əməl olunmasına nəzarətlə bağlı aşağıdakılardan hansı doğru *deyil?***
A) Dövlət orqanının rəhbəri – xidməti qaydada
B) Yuxarı orqan – tabeçilik əsasında
C) Müvafiq dövlət orqanı (bundan sonra "Nəzarət orqanı") – "Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyənləşdirilmiş qaydada həyata keçirir.
D) Dövlət orqanlarında etik davranış qaydalarına əməl olunmasına nəzarəti həmin orqanların müvafiq qurumları həyata keçirir.

**355. " Dövlət qulluqçularının etik davranış qaydaları haqqında" Azərbaycan Respublikasının Qanununa görə dövlət orqanının rəhbərinin vəzifələrinə aid *deyil?***
A) tabeliyində olan dövlət qulluqçularının xidməti davranışlarının bu Qanunla müəyyən olunan etik davranış qaydalarına uyğunluğuna nəzarət etməli və onun təhlilini aparmalıdır;
B) öz davranışı ilə etik davranış qaydalarına əməl olunması nümunəsi göstərməlidir;
C) tabeliyində olan dövlət qulluqçuları arasında onların tutduqları vəzifələrə uyğun olaraq vəzifə bölgüsü aparmalıdır;
D) dövlət qulluqçularından və digər şəxslərdən bu Qanunun müddəalarının pozulması ilə bağlı şikayətlər və məlumatlar qəbul edir

**356. " Dövlət qulluqçularının etik davranış qaydaları haqqında" Azərbaycan Respublikasının Qanununa görə dövlət orqanının rəhbərinin vəzifələrinə aid *deyil?***
A) bu Qanunla müəyyən edilmiş etik davranış qaydalarına əməl edilməsi vəziyyətini öyrənir və bu barədə məlumatları ümumiləşdirir;
B) tabeliyində olan şəxsləri hüquqa və hamılıqla qəbul edilmiş etik normalara zidd olan hərəkət etməyə və qərarlar qəbul etməyə sövq etməməlidir;
C) rəhbərlik etdiyi dövlət orqanlarına və onların struktur bölmələrinə kadrların seçilməsi və yerləşdirilməsi zamanı qanunvericiliyin tələblərinə əməl etməlidir;
D) etik davranış qaydalarının pozulmasının qarşısının alınması və profilaktikası üzrə tədbirlər görməlidir

**357. " Dövlət qulluqçularının etik davranış qaydaları haqqında" Azərbaycan Respublikasının Qanununa görə nəzarət orqanının səlahiyyətlərinə aid *deyil?***
A) daxil olan şikayətlər və məlumatlardan irəli gələn məsələlərin həlli üzrə təkliflər, tövsiyələr və təqdimatlar verir
B) dövlət qulluqçularının etik davranış məsələləri üzrə ictimai rəyin öyrənilməsi və bununla bağlı maarifləndirmənin həyata keçirilməsi üçün tədbirlər görür
C) dövlət qulluqçularının etik davranış məsələləri üzrə araşdırmalar aparır, bu məsələlərlə bağlı tövsiyələr və məruzələr tərtib edir
D) etik davranış qaydalarının pozulması halları ilə bağlı həyata keçirilmiş tədbirlər barədə vətəndaşları, təşkilatları, və dövlət orqanlarını məlumatlandırmalıdır

**358. ” Dövlət qulluqçularının etik davranış qaydaları haqqında” Azərbaycan Respublikasının Qanununa görə intizam icraatının başlanılması ilə bağlı qeyd olunanlardan hansı doğru *deyil?***

A) bu Qanunun müddəalarının dövlət qulluqçusu tərəfindən pozulması barədə hüquqi və ya fiziki şəxslər tərəfindən şikayət və ya digər məlumatın verilməsi hallarında intizam icraatına başlanıla bilər.

B) kütləvi informasiya vasitələrində dövlət qulluqçusu tərəfindən bu Qanunun müddəalarının pozulması və maraqların toqquşmasına yol verilməsi barədə məlumatın dərc edilməsi halında intizam icraatına başlanıla bilər.

C) İntizam icraatı zamanı dövlət qulluqçusu tərəfindən yol verilən hüquq pozuntusunda cinayət tərkibinin əlamətləri aşkar edildikdə, həmin əlamətləri aşkar etmiş dövlət orqanının rəhbəri bu barədə cinayət təqibi orqanına məlumat verməlidir.

D) Zəruriyyət yaranarsa, nəzarət orqanı etik davranış qaydalarının pozulması ilə əlaqədar dövlət qulluqçusuna qarşı aparılan intizam icraatının gedişinə müdaxilə edə bilər.

**359. AR Konstitusiyasına əsasən, AR Prezidentinin səhhətinə görə öz səlahiyyətlərini icra etmək qabiliyyətini tamamilə itirdiyi barədə məlumat verildikdə AR Milli Məclisi bu faktın aydınlaşdırılması üçün müraciət edir:**

A) AR Səhiyyə Nazirliyinə
B) AR Ali Məhkəməsinə
C) AR Konstitusiya Məhkəməsinə
D) AR Mərkəzi Seçki Komissiyasına
E) AR Prokurorluğuna

**360. Təlimata əsasən, sənədin icra müddəti hesablanır:**

A) Sənədin təşkilata daxil olduöu vaxtdan
B) Sənədin təşkilata göndərildiyi vaxtdan
C) Sənədin imzalandığı vaxtdan
D) Sənədin icra olunduğu vaxtdan

**361. AR Konstitusiyasına əsasən aşağıdakılara uyğun olan müddəaları seçin.**

1. *Milli Məclisin deputatlığına namizədlər üçün müəyyən edilmiş tələblər*
2. *Prezidentliyə namizədlər üçün müəyyən edilmiş tələblər*

a. Namizədin din xadimi olmaması
b. Namizədin 10 ildən artıq AR ərazisində daimi yaşamalı olması
c. Namizədin ali təhsilli olması
d. Namizədin yaşının 35-dən az olmaması
e. Namizədin elmi,pedoqoji və yaradıcılıq fəaliyyəti istisna olmaqla, başqa ödənişli fəaliyyətlə məşğul olmaması

**362. Dövlət qulluğu haqqında ARQ-a əsasən, göstərilənlərə uyğun olan düzgün müddəaları seçin.**

1. Dövlət qulluğunun əsas vəzifələri
2. Dövlət qulluğunun prinsipləri

a. AR-da qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının səlahiyyət hüdudlarının müəyyən edilməsi
b. Dövlət orqanlarının səlahiyyəti hüdüdlarında qərarların hazırlanması, qəbul edilməsi, icrası və icraya nəzarət edilməsi
c. Dövlət orqanlarının səmərəli fəaliyyətinin və dövlət qulluqçuları tərəfindən vəzifə səlahiyyətlərinin yerinə yetirilməsinin təmin edilməsi
d. Dövlət orqanlarına və dövlət qulluqçularına nəzarət və onların hesabat verməsi

**363. Dövlət qulluğu haqqında ARQ-a əsasən, dövlət qulluqçusunun malik olduğu əsas hüquqlara aid olan doğru müddəaları seçin.**

1. Həmkarlar ittifaqında birləşmək
2. Öz qulluq vəzifələrinin yazılı sürətdə təsbit edilməsini və onların icrası üçün şərait yaradılmasını tələb etmək
3. Xidməti nəqliyyat almaq
4. Dövlət orqanlarında əlavə ödənişli fəaliyyətlə məşğul olmaq
5. əmanətlərdən, qiymətli kağızlardan və rentadan və icarədən gəlir götürmək

**364. AR Konstitusiyasına əsasən aşağıdakılara uyğun olan müddəaları seçin.**

1. *Milli Məclisin deputatlığına namizədlər üçün müəyyən edilmiş tələblər*
2. *Hakimliyə namizədlər üçün müəyyən edilmiş tələblər*

a. Namizədin siyasi fəaliyyətlə məşğul ola bilməməsi və siyasi partiyalara üzv ola bilməməsi
b. Namizədin yaşının 30-dan az olmaması
c. Namizədin icra və ya məhkəmə hakimiyyəti sistemlərində qulluq etməməsi
d. Namizədin heç bir başqa seçkili və təyinatlı vəzifə tuta bilməməsi
e. Namizədin ağır cinayətlərə görə məhkum olunmuş şəxs olmaması

**Ad və Soyad:** ________________________